www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 may 2019-cu il Cümə axşamı № 94 (7264) Qiymətı 60

**Xəbər**

## Nazir şagirdin ölümünə görə məktəb direktorunu işdən çıxarıldı

yazısı səh.4-də

**Gündəm**

### Prezidentdən xarici sərmayədarlara əngəl yaradanlara xəbərdarlıq



Dövlət başçısı bir daha islahatlara alternativin olmadığını vurğuladı, idarəetmədə islahatların vacibliyini önə çəkdi

yazısı səh.3-də

### "Yeniyetmə və gənclərə dinlərlə bağlı biliklərin verilməsi yeni ideya deyil" - komitə rəsmisi

yazısı səh.10-da

### Türkiyə-Azərbaycan birgə təlimlərinə qarşı düşmən təxribatı

yazısı səh.11-də

### Oqtay Əsədov niyə hədəfdədir...

yazısı səh.6-da

### İcra başçılarının xanım müavinlərinin karyera yolu

yazısı səh.12-də

### İqtidar-müxalifət dialoqunu əngəlləyən səbəblər

yazısı səh.6-da

### Azərbaycanda 1 May niyə keçirilmir - mövqelər

yazısı səh.12-də

### Venesuela olayları dünyanı ikiyə haçaladı

yazısı səh.10-da

### Pul qazanmaq naminə nələri itiririk - ilginc elmi araşdırma

yazısı səh.13-də

### ABŞ "Müsəlman Qardaşlar"ı terror siyahısına salır

yazısı səh.14-də

### Xəyanətə uğrayan qadın necə davranmalıdır - psixoloq rəyi

yazısı səh.15-də

### Sahibkarlar "Diqlas" rəhbərliyindən narazıdır

yazısı səh.13-də

# MOSKVADAN BAKIYA JEST - KREML PAŞİNYANI YENƏ PƏRT ETDİ

Əsir və girovların "hamının hamıya" prinsipi üzrə dəyişdirilməsi məsələsi təzədən gündəmdə; Rusiya Azərbaycanın yanında etimadını artıra bilər, əgər...; Kreml Qarabağ məsələsində ABŞ-ın fəallaşmasından niyə narahatdır?



yazısı səh.8-də

## "Azəriqaz" rəhbəri haqda prezidentə elə bir dosye verilib ki...

Dövlət başçısının Əkbər Hacıyevin rəhbərlik etdiyi qurumla bağlı müşavirədə sərt danışmasının ilginc səbəbləri; İB rəhbərinin əndazəni aşan qanunsuzluqları onunla bağlı yaxın vaxtlarda qəti tədbirlərin görüləcəyini istisna etmir

yazısı səh.7-də



*Fəzail Ağamalı:*

**"Limitlərin tamamilə ləğv olunması ölkə prezidentinin islahatları ilə tamamilə üst-üstə düşərdi"**

yazısı səh.4-də



*Fizuli Məmmədov:*

**"Bizi birləşdirən Vətən hissidir"**

yazısı səh.5-də



*Əli Əliyev:*

**"Erkən parlament seçkiləri gündəmdən çıxmayıb"**

yazısı səh.9-da

**2 may 2019**



## “Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir”- müdafiə naziri

**“Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Silahlı Qüvvələrdə, Azərbaycan Ordusunda həyata keçirdiyi islahatlar nəticəsində bu gün ordumuzun xidməti fəaliyyəti və döyüş qabiliyyəti ən yüksək səviyyədədir”.**

Bunu “Report”un Türkiyə bürosuna açıqlamasında Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov deyib.

Nazir vurğulayıb ki, Azərbaycan Ordusunun xidməti döyüş fəaliyyətindən, onun inkişafından, aparılan islahatlardan günlərlə danışmaq olar: “Azərbaycan inkişaf edir. Təbii ki, ölkəmizin hərbi sahəsi də günü-gündən inkişaf edir. Ordumuz ən müasir silahlarla təchiz olunub. Ən əsası Azərbaycanın əsgərindən tutmuş generalına kimi hamıda böyük vətənpərvərlik və yüksək əhval-ruhiyyə var. Onlar hər zaman Ali Baş Komandanın əmrini icra etməyə qadirdirlər”.

## “Formula-1”i izləməyə 85 min tamaşaçı gəlib




**“Formula-1" SOCAR Azərbaycan Qran Prisi 2019 yarışı çərçivəsində 4 gün boyunca yarış sessiyalarını yerində canlı izləməyə və həmçinin həftəsonunda Kristal Zalda dünya ulduzlarının iştirakı ilə keçirilən axşam konsertlərinə ümumilikdə 85 min tamaşaçı gəlib.**

Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən (BŞH) ONA-ya bildirilib ki, bu il ötən ilki qədər bilet satılıb. Xaricdən alınan biletlərin nisbəti 22 % təşkil edib. Ötən illə müqayisədə bu il yarış həftəsonu ərzində yarış məkanına gələnlərin sayında bir qədər azalma müşahidə olunub. Buna səbəb əvvəlcədən iştirakı nəzərdə tutulan britaniyalı ulduz Sem Smitin yarışa çox az vaxtda xəstələndiyi üçün Bakı konsertini ləğv etməsidir.

Qeyd edək ki, Azərbaycan Qran Prisini “Mercedes” komandasının pilotu Valteri Bottas qazanıb. Onu komanda yoldaşı Luis Hamilton və “Ferrari” sürücüsü Sebastian Fettel ardıcıllıqla izləyiblər. Yarışı izləməyə 74 ölkədən azarkeş gəlib.

Abunə daha sərfəlidir - **“Yeni Müsavat” abunə** kampaniyasını davam etdirir




“Yeni Müsavat” qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa “Qaya” Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# Pənah Hüseyn Qarabağ Komitəsinin dönəm sədri seçildi

## Qarabağ mitinqinə icazə verilmədi, QAT növbəti mitinq müraciəti etdi

**Mayın 1-də KXCP-nin qərargahında Qarabağ Komitəsinin toplantısı olub. İclasda Qarabağ Komitəsinə Pənah Hüseyn dönəm sədri seçilib. Buna qədər dönəm sədri Mirmahmud Mirəlioğlu idi. Pənah Hüseynin “Yeni Müsavat”a verdiyi məlumata görə, toplantıda İdarə Heyətinin QK-ya üzvlüyə qəbulla bağlı məlumatı dinlənilib.**



Nizaməddin Quliyev, Mövlənverdi Rəsulov üzvlüyə qəbul olunublar. İdarə Heyəti həmçinin Mehriban Vəzirin və digər üç nəfərin üzvlüyə qəbulu məsələsinə də baxıb. Sonra son dövrlərdə Azərbaycanla Gürcüstan arasında baş verən proseslər və bunun Qarabağ probleminə təsiri ilə bağlı diskussiyalar aparılıb. Bu barədə Qarabağ Komitəsinin xüsusi bəyanatı hazırlanıb.

İclasda “Azərbaycanın müharibə hüququ varmı?” mövzusunda dəyirmi masanın keçirilməsi haqqında qərar qəbul olunub.

Həmçinin Qarabağ Komitəsi cari məsələlərlə bağlı, 4 maya təyin edilən mitinqlə bağlı müzakirə aparıb.

**Pənah Hüseyn qeyd etdi ki, Bakı Şəhər İcra Hakimiyyətinin mitinqə razılıq verməməsinə dair cavabı axşama doğru daxil olub:** “Yaranmış yeni vəziyyət yeni toplantı keçirilərək müzakirə olunacaq və qərar veriləcək. Ümumi rəy belədir ki, Avropa İttifaqı ilə saziş sənədinin hazırlanması gözlənildiyinə görə yaxın 10 gündə razılaşdırılmamış aksiyalar olmasın. Həmin vaxtdan sonra isə yenə də mitinq üçün müraciətlərə mənfi cavablar olacaqsa, mitinqin başqa bir formalarda keçirilməsinin müzakirəsi başlanacaq”.

**Pənah Hüseyn yeni dönəm sədri kimi aktiv işləyəcəyini də bildirdi:** “Mən söz verdim ki, Qarabağ Komitəsinin fəaliyyətində müsbət irəliləyişlər olması üçün öz proqramımı təqdim edəcəyəm. Eyni zamanda hesab edirəm ki, Qarabağ Komitəsində islahatlara ehtiyac var. Gələn həftə İdarə Heyətinin yeni tərkibi seçiləcək. Bu barədə iclasda qərar qəbul olunub”.

Qarabağ Azadlıq Təşkilatı (QAT) isə dünən mayın 18-də Qarabağ mitinqinin keçirilməsi üçün Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edib. Qarabağ mitinqinin 2019-cu il mayın 18-də, saat 15.00-dan 17.00-dək 10 min nəfərin iştirakı ilə Yasamal rayonu ərazisində “Məhsul” stadionunda keçirilməsi nəzərdə tutulur. Mitinqdə “Qarabağa azadlıq!”, “Ya Qarabağ, ya ölüm! Başqa yol yox artıq!”, “Beynəlxalq qurumların qərəzli vasitəçiliyini rədd edirik!”, “Ermənistana zərbə, Azərbaycana qələbə!”, “İşğalçı Ermənistana sanksiyalar tələb edirik!” şüarları səsləndiriləcək, eyni məzmunda plakatlar qaldırılacaq, çıxışlar ediləcək, qətnamə qəbul olunacaq".

Müraciətin sonunda QAT BŞİH-dən Qarabağ mitinqinin keçirilməsi üçün qanunvericiliyə uyğun olaraq şəraitin yaradılmasını xahiş edib.

**❑ E.SEYİDAĞA, “Yeni Müsavat”**

## Qayda pozan maşınların duracağa gətirilməsinə dair yeni qayda müəyyənləşib

**Bakıda dayanma və ya durma, o cümlədən parklanma qaydalarının pozulması zamanı nəqliyyat vasitələrinin duracağa gətirilməsinə dair qayda dəyişib.**

ONA-nın məlumatına görə, Nazirlər Kabineti bununla bağlı “Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məsələləri haqqında” qərarında dəyişiklik edib.

İndiyə qədər Bakı şəhərinin inzibati ərazisində dayanma və ya durma qaydalarının pozulması ilə əlaqədar inzibati xətanı törətmiş şəxs nəqliyyat vasitəsinin yanında olmadığı və həmin nəqliyyat vasitəsinin yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı hallarda, habelə parklanma qaydalarının pozulması ilə bağlı hallarda nəqliyyat vasitələri Bakı Nəqliyyat Agentliyinin mühafizə olunan duracağına gətirilməli idi. Dəyişikliyə əsasən, bundan sonra həmin nəqliyyat vasitələri Bakı Nəqliyyat Agentliyinin ən yaxın mühafizə olunan duracağına gətirilməlidir.



## Azərbaycanda 10 dini kollec fəaliyyətə başlayacaq

**“Azərbaycanda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində kolleclər (mədrəsə) fəaliyyət göstərəcək”. Bunu “Report”a açıqlamasında QMİ sədrinin müavini Hacı Fuad Nurullayev deyib.**

O bildirib ki, dini təhsil müəssisələri 2, yaxud 4 illik olacaq: “Həmin kolleclər QMİ-nin tabeliyində olan məscidlərin nəzdində fəaliyyət göstərəcək. Ona görə də kolleclərin fəaliyyətə başlaması məsələsi artıq gündəmdədir. Hazırda bizim bir neçə mədrəsəmiz və kurslarımız var. Amma respublika üzrə 10-a yaxın kollec tipli təhsil müəssisəsinin açılması nəzərdə tutulur. Heydər İslam Kolleci, Zaqatala İslam Kolleci, Gəncə İslam Kolleci, Lənkəran İslam Kolleci, Quba İslam Kolleci, Nardaran İslam Kolleci, Bibiheybət İslam Kolleci və Naxçıvan İslam Kolleci fəaliyyətə başlayacaq. Çünki bu gün fəaliyyət göstərən mədrəsə və kurslarımızın sayı qaneedici deyil”.

**Sədr müavininin sözlərinə görə, hazırda şagirdlər üçün QMİ-nin tabeliyindəki məscidlərin nəzdində 100-dən çox dini kurslar təşkil edilib və kolleclərə qəbul orta məktəb şagirdlərinə şamil edilməyəcək:** “Şagirdlər yalnız kurslarda valideynlərinin razılığı əsasında təhsil ala bilirlər. Eyni zamanda tələbələrin dini tədris müəssisələrində təhsil alması mexanizmi tənzimlənəcək. Orta və ali məktəbdə oxuyanlar yalnız orada dərs saatları bitəndən sonra kurs və kolleclərə gələ biləcək. Yəni orta məktəbdə və yaxud universitetdə günün birinci yarısında oxuyan tələbənin kollecdə, şagirdin isə dini kursda təhsil almasına günün ikinci yarısında icazə veriləcək. Hətta oğlanların hərbi xidmətini başa vurduqdan sonra da dini kolleclərdə təhsil almasına şərait yaradılacaq”.

## “Nazirlərin növbəti görüşünün ABŞ-da keçirilməsinə dair danışıqlar gedir” - səfirlik

**“ABŞ Minsk Qrupu həmsədri ölkəsidir. Dağlıq Qarabağ münaqişəsi tərəfləri ilə münaqişənin sülh yolu ilə həllinin tapılmasında birgə işləməyə sadiqik”.**

ONA-nın məlumatına görə, bu sözləri ABŞ səfirinin müavini Uilyam Gill deyib. O bildirib ki, ABŞ nazirlərin növbəti görüşünə ev sahibliyi etməyə məmnuniyyətlə hazırdır. Bu barədə danışıqlar davam edir. Ümid edirik ki, gələcək günlərdə bununla bağlı müsbət məlumat veriləcək".

## Azərbaycan nefti bahalaşıb

**CIF bazisi üzrə İtaliyanın Augusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti aprelin 29-da 74,53 dollar/barel təşkil edib ki, bu da ötən həftənin cümə gününə olan göstəricidən 0,32 dollar/barel çoxdur.**

Bu barədə «Trend»ə ölkənin neft-qaz bazarındakı mənbə bildirib.

FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti 73,86 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 0,32 dollar/barel çoxdur.

Novorossiysk limanından yüklənən URALS neftinin qiyməti isə 71,3 dollar/barel təşkil edib ki, bu, əvvəlki göstəricidən 0,32 dollar/barel çoxdur.

Şimal dənizindən hasil edilən “Brent Dated” etalon növlü neftin qiyməti 71,59 dollar/barel təşkil edib, bu da əvvəlki göstəricidən 0,39 dollar/barel çoxdur.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

# Prezidentdən xarici sərmayədarlara əngəl yaradanlara xəbərdarlıq

## Dövlət başçısı bir daha islahatlara alternativin olmadığını vurğuladı, idarəetmədə islahatların vacibliyini önə çəkdi



**Aprelin 30-da Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş hökumət müşavirəsi keçirilib.**

Müşavirədə çıxış edən prezident ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətə, eyni zamanda struktur və idarəetmə islahatlarına dair mövqeyini bir daha açıqlayıb. Dövlət başçısı bildirib ki, islahatlara alternativ yoxdur: "Əlbəttə ki, islahatların davam etdirilməsi üçün biz çox ciddi işləməliyik, daim inkişafda, axtarışda olmalıyıq. Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək".

**İqtisadi sahədə əldə olunan nəticələrdən danışan İ.Əliyev qeyd edib ki, birinci rüb ərzində ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub:** "Bu sərmayənin 2 milyardı ölkəmizin qeyri-neft sektoruna yatırılıb. Biz burada da müsbət dinamikanı görürük. Çünki bizim əsas məqsədimiz, əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır".

**Prezident xarici ölkələrdən Azərbaycana sərmayə qoymaq istəyənlərin sayının artdığını deyib, bu sahədə mövcud olan problemə toxunub:** "İndi xaricdən investisiya, sərmayə qoymaq istəyənlərin sayı çoxalır. Xarici sahibkarlar müraciət edirlər. Şadam ki, qeyri-neft sektoruna investorlar tərəfindən böyük maraq var. Burada əsas məsələ bürokratik əngəlləri aradan götürməkdir. Biz potensial investoru cəlb etməliyik, investoru axtarmalıyıq, ona sübut etməliyik ki, Azərbaycana sərmayə qoysun. Ancaq bəzi hallarda hansısa yerli və ya xarici şirkət investisiya qoymaq istəyəndə onun qarşısında süni, bürokratik və digər əngəllər yaradılır. Bu, tamamilə qəbuledilməzdir, buna yol verməк olmaz. İnvestisiyaların cəlb edilməsi hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtlərdən biridir".

**İ.Əliyev ölkədə həyata keçirilən özünüməşğulluq proqramı barədə də danışıb:** "Bu proqram çox böyük rəğbət qazanıb. Biz hər il özünüməşğulluq proqramı çərçivəsində təqribən 7 minə yaxın insanı işə cəlb etmək fikrindəyik. Ancaq yerlərdən gələn sifarişlər qat-qat çoxdur. Bunu biz nəzərə almalıyıq və öz planımıza düzəlişlər etməliyik. Bu, əlbəttə ki, təkcə maliyyə vəsaiti tələb edən məsələ deyil, burada bir çox texniki məsələlər, vasitələrin alınması var, ondan sonra, nəzarət mexanizmi tətbiq edilməlidir. Onu da bildirməliyəm ki, aparıcı beynəlxalq maliyyə qurumlarının, misal üçün, Dünya Bankının, digər bankların rəhbərləri ilə görüşlər əsnasında bu məsələni də mən qaldırmışdım və onlarda da buna böyük maraq var. Biz onları cəlb etməliyik. Bizim indi maliyyə imkanlarımız var. Ancaq təcrübə baxımından, onlarda olan təcrübə bizdə yoxdur. Çünki biz bu işə təzə başlamışıq, onlar isə dünyanın müxtəlif yerlərində bu proqramı təşviq edirlər. Ona görə özünüməşğulluq proqramına daim diqqət göstərilməlidir".

**Ölkə başçısı bildirib ki, Azərbaycan vətəndaşları ən ağır məqamlarda dövlətin onların yanında olacağına əmin olmalıdırlar:** "Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar. Müvafiq icra orqanlarının rəhbərlərinə və məsul şəxslərə göstəriş verildi ki, onlar daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar. İcra başçıları qəsəbələrdə, kəndlərdə olmalıdırlar, vətəndaşların problemlərini eşitməlidirlər, onlara biganə qalmamalıdırlar, onlara şərait yaratmalıdırlar, onlara dəstək olmalıdırlar, kömək göstərməlidirlər. Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaq".

### Məmurlar vətəndaşların problemləri ilə məşğul olmalıdır

**Prezidentin sözlərinə görə, ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac var:** "Mən bunu demişəm, bu gün də, əvvəlki çıxışlarda da. Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaq. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcək. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdır.

Biz regional inkişaf proqramını böyük dərəcədə yerlərdən gələn məktublar, sifarişlər əsasında formalaşdırmışıq. Hansı problemlər insanları narahat edir, biz o problemləri də dövlət proqramına salmışıq və onları həll edirik. Amma bəzi hallarda bu layihələrin icrası ilə bağlı da bir çox qüsurlar, bir çox çatışmazlıqlar olur. Bunlar aradan qaldırılmalıdır. Əlbəttə ki, ictimai nəzarət daha da güclü olmalıdır".

**İ.Əliyev əhalinin gəlirlərinin artmasına gətirib çıxaran sosial siyasətdən istifadə edərək süni qiymət artımına yol verilməsi təhlükəsinin olduğunu vurğulayıb:** "Ölkəmizdə makroiqtisadi vəziyyət sabitdir. Mən qeyd etdim, inflyasiya aşağı səviyyədədir - 2 faizdən bir qədər çoxdur. Manatın məzənnəsi sabitdir. Belə olan halda, əlbəttə ki, süni qiymət artımına yol verməк qətiyyən olmaz. Bəzi hallarda bəzi məhsulların qiymətlərində artım olur. Bunun heç bir əsası yoxdur. Bəzi hallarda mövsümi xarakter daşıyır. Amma bəzi hallarda qiymətlər süni şəkildə artırılır. İndi ölkə iqtisadiyyatında canlanma var. İnsanların alıcılıq qabiliyyəti artır. Biz bunu indi statistik göstəricilərdən görürük. İndi istehlak bazarına nəzarət edən qurumlar bunu görür. Maaşlar, müavinətlər artır, problemli kreditlərlə bağlı ödənişlər başlamışdır. Ancaq biz imkan verə bilmərik ki, bundan hansısa natəmiz adamlar, möhtəkirlər istifadə etsinlər, qiymətləri süni şəkildə qaldırsınlar, yaxud da ki, hansısa bir inhisarçılıqla məşğul olsunlar. Ona görə istehlak qiymətlərinə daim nəzarət olmalıdır. Süni qiymət artımına qətiyyən yol verilməməlidir. Müvafiq qurumlar bu işlərlə çox ciddi məşğul olmalıdırlar".

### Kəndlərin yeni inkişaf konsepsiyası hazırlanacaq

**Dövlət başçısı kənd təsərrüfatında yeni mexanizmlərin, o cümlədən aqrar sığorta mexanizmi tətbiq edilməli olduğunu bildirib:** "Bununla paralel olaraq, biz kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı düşünməliyik. Mən tapşırıq verirəm ki, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birgə işləsinlər. Bəlkə işçi qrup da yaradıla bilər ki, kəndlərdə investisiya layihələrinin icrası ilə bağlı təkliflər hazırlansın. Hər bir kənd üzrə belə proqram ola bilər. Biz investisiyaları daha çox şəhərlərə cəlb edirik. Ancaq kəndlərin yeni inkişaf konsepsiyası hazırlanmalıdır".

**Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Natiq Əmirovun müşavirədə verdiyi məlumata görə, 2020-ci ilin sonuna qədər strateji yol xəritələrinin icrası üçün cəmi 20 ay qalıb:** "Bu müddət ərzində biznes mühiti və rəqabət məcəlləsinin qəbulu ən əhəmiyyətli məsələlərdəndir. Sizin tapşırığınıza əsasən bu iki il ərzində rəqabət məcəlləsinin qəbulu prosesi başa çatmalıdır. Ortamüddətli xərclər çərçivəsinə keçid təmin edilməli, korporativ idarəetmə standartları təsdiq olunmalı, özəl investisiyaların cəlbi artırılmalıdır. Maliyyə dərinliyinin 60 faizə qədər çatdırılması, aqrar sığortanın inkişafı, elektron kənd təsərrüfatı informasiya sisteminin ölkə üzrə tam tətbiqi nəzərdə tutulur. Neft maşınqayırması sahəsində ənənəvi istehsal sahələri bərpa olunmalı, birbaşa xarici investisiyaların cəlbi üçün tədbirlər görülməlidir. Kiçik və orta sahibkarların ümumi daxili məhsulda payının 15 faizə, qeyri-neft ixracında isə 10 faizə çatması üçün əhəmiyyətli islahat tədbirləri həyata keçirilməlidir. Lisenziya və icazələr portalının tam fəaliyyəti təmin olunmalı, açıq səma sazişləri, yeni xarici aşağı büdcəli hava nəqliyyatı şirkətlərinin cəlbi istiqamətində tədbirlər görülməlidir. Təhsil sahəsində, xüsusilə peşə təhsili sahəsində islahatlar davam etdirilməlidir".

N.Əmirov həmçinin qeyd edib ki, uzunmüddətli hədəfləri nəzərə aldıqda 2020-ci ildən sonrakı dövr üçün Azərbaycanın strateji inkişaf proqramları hazırlanmalı və təsdiq edilməlidir.

**Kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, fermerlərə dövlət dəstəyinin təkmilləşdirilməsi üçün subsidiyaların verilməsinin yeni qaydalarının layihəsi hazırlanıb:** "Bu gün fermerlərimizi qayğılandıran digər məsələlərdən biri və yüksək diqqətinizə ünvanladıqları çoxsaylı xahişləri, həmçinin kiçikhəcmli kreditlərə çıxışın asanlaşdırılması və təbii hadisələrə qarşı aqrar sığortanın tətbiq edilməsidir. Aqrar sahənin üzləşdiyi digər çağırışlar kiçik parsellərə bölünmüş torpaqların sistemləşdirilməsi, şorlaşmış, şorakətləşmiş və əkinə yararsız torpaqların yararlı hala salınması, müasir suvarmanın və təsərrüfatlararası yolların düzgün qurulmasıdır".

Nazir qeyd edib ki, bu il ölkədə taxıl və pambıq istehsalındakı artımın yalnız məhsuldarlığın yüksəldilməsi hesabına əldə olunması hədəflənib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin verdiyi məlumata görə, Agentlik tərəfindən aparılan təhlillərə və beynəlxalq ekspertlərin rəylərinə əsasən pilot layihənin ikiillik nəticələrinə əsasən ölkənin icbari tibbi sığortanın tətbiqi və sonrakı inkişafı üçün lazımi şəraitə, zəruri potensial, resurs və imkanlara malik olduğunu söyləmək olar.

### Səhiyyədə yeni keyfiyyət standartları hazırlanır

**Z.Əliyev bildirib ki, dövlət tibb müəssisələrində göstərilən tibb xidmətlərin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Agentlik Səhiyyə Nazirliyi ilə birgə tibb müəssisələri üçün keyfiyyət standartları üzərində işə başlayıb:** "2020-ci il ərzində 20 standartın tətbiqi nəzərdə tutulub. Standartlara uyğun fəaliyyət göstərən tibb müəssisələri Agentlik tərəfindən keyfiyyət indeksinə uyğun əlavə maliyyələşmə imkanı əldə edəcək. Sonrakı illərdə isə keyfiyyət standartlarının sayının 200-ə çatdırılması nəzərdə tutulub. Əhalinin icbari tibbi sığorta çərçivəsində yararlana biləcəyi xidmətlərin toplusunu ehtiva edən xidmətlər zərfinin hazırlanması, habelə tibbi xidmətlərin tariflərinin müəyyənləşdirilməsi üzərində işlər aparılır. Həmçinin qarşıya qoyulan mühüm vəzifələrdən biri də səhiyyə işçilərinin gəlirlərinin əmək bazarının tələblərinə uyğun tənzimlənməsidir. Hazırda bu istiqamətdə işlər yekunlaşmaq üzrədir və layihələr ən qısa zamanda aidiyyəti üzrə təqdim olunacaq".

**❑ TURQUT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

## Nazir şagirdin ölümünə görə məktəb direktorunu işdən çıxardı



**Bakıda şagirdin ölümünə görə məktəb direktoru işdən çıxarılıb, müavininə isə şiddətli töhmət verilib.**

Təhsil Nazirliyindən "Report"a bildirilib ki, nazirliyin xüsusi komissiyası tərəfindən aparılmış daxili araşdırmanın nəticəsi olaraq əmək müqaviləsində nəzərdə tutulmuş vəzifə funksiyalarını lazımi səviyyədə icra etmədiyinə görə təhsil naziri Ceyhun Bayramovun əmri ilə Bakı şəhəri 123 nömrəli tam orta məktəbin direktoru Vəli Hüseynli tutduğu vəzifədən azad edilib, məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Könül Cəlilovaya sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

Xatırladaq ki, bu il fevralın 21-də, təxminən saat 12:00 radələrində 123 saylı orta məktəbin stadionunda futbol oynayan XI b sinif şagirdi Lətifov İlkin Mehman oğluna sinif yoldaşları xəsarət yetirib. Şagird qapalı kəllə-beyin travması diaqnozu ilə 3 saylı şəhər xəstəxanasına yerləşdirilib. Martın 15-də şagird vəfat edib.

Hadisə ilə bağlı məktəbin 2 şagirdi şübhəli qismində nəzarətə götürülüb.

# Qaz limiti artırıldı, bəs işıq?

## Qubad İbadoğlu: "Həm qaz, həm də elektrik enerjisi limiti ləğv olunmalıdır"





## Fəzail Ağamalı: "Limitlərin tamamilə ləğv olunması vətəndaşlarımızın maraqlarına uyğun olardı və ölkə prezidentinin islahatları ilə tamamilə üst-üstə düşərdi"

**Son aylarda Azərbaycanda ciddi müzakirələrə səbəb olan qaz və elektrik enerjisindən istifadəyə tətbiq edilmiş limitlə bağlı ilk addım atılıb. Xəbər verdiyimiz kimi, Tarif Şurasının aprelin 30-da qəbul etdiyi qərarla ölkə əhalisinin qazdan istifadəsinə tətbiq edilən güzəştli limitin həcmi artırılıb. Mayın 1-dən etibarən əhali il ərzində istehlak etdiyi təbii qazın 1700 deyil, 2200 kubmetri həcmi üzrə hər kubmetr üçün 10 qəpik, ondan yuxarı hədd üçünsə 20 qəpik ödəyəcək.**

**Tarif Şurasının rəhbəri, iqtisadiyyat naziri Şahin Mustafayev**in dediyinə görə, indiyədək istehlak həcmi 1700 kubmetr olan tarifdən 1,5 milyon abonent və ya 6 milyon nəfər istifadə edirdi: "Mövcud qərara əsasən, əlavə olaraq 300 min abonent (1,2 milyondan çox vətəndaş) bu güzəştdən yararlanacaq. Beləliklə, təbii qazı yalnız aşağı tariflə istehlak edən əhali abonentlərinin xüsusi çəkisi 70 faizdən 85 faizə yüksələcək".

**Tarif (qiymət) Şurasının katibi Ceyhun Nəcəfov isə deyib ki, təbii qazdan güzəştli tariflə istifadə limitinin artırılması ilə əlaqədar olaraq yaranmış fərq bütünlükdə dövlət tərəfindən qarşılanacaq. Şura katibi artan limit həcminin tətbiqi mexanizmini də açıqlayıb. Belə ki, hesablaşma 1 yanvar 2019-cu ildən etibarən istifadə olunan təbii qazın həcminə uyğun olaraq həyata keçiriləcək:** "Misal üçün, tutaq ki, abonent 1 may 2019-cu ilədək 1400 kubmetr qaz istehlak edib. Bu halda abonent ilin sonunadək daha 800 kubmetr təbii qazı aşağı tariflə (1 kubmetr üçün 10 qəpik) istifadə edə biləcək. Abonent bu tarixədək əvvəlki limiti (1700 kub m) ötübsə, yeni limitədək olan hissə üçün ödədiyi vəsait hesablaşmalarda nəzərə alınacaq. Əgər abonent il ərzində müəyyən olunan yeni limitdən (2200 kubmetr) artıq təbii qaz istifadə edərsə, bu halda hesablaşma yeni limitdən artıq hissə üçün 1 kubmetr X 20 qəpik olmaqla həyata keçiriləcək"(Report).

**İqtisadçı-ekspert Rövşən Ağayevin sözlərinə görə, hökumətin hazırkı sosial standartları ilə yoxsul ev təsərrüfatları üçün bu hədd əsasən kifayət edəcək:** "Bu yaxınlarda 150-dək ev təsərrüfatı arasında apardığımız sorğuların nəticəsi göstərdi ki, ümumi sahəsi 80-90 kvadratmetrədək olan, kombi ilə təchiz edilmiş mənzillər üçün 2.2 min kubmetr bəs etməlidir.

Mənzilin sahəsi 90 kvadratmetrdən üzüyuxarı getdikcə illik istehlakın həcmi əlavə hər 10 kvadratmetr üçün orta hesabla 100-200 kubmetr artığında yüksələcək. Bu fərq mənzilin vəziyyətindən, coğrafiyada qışın nə dərəcədə sərt keçməsindən asılı olaraq dəyişir. Rəsmi məlumatdan aydın olur ki, hazırda 1.5 milyon ev təsərrüfatının illik istehlakı 1.7 min kubmetrədək, 300 min ev təsərrüfatının illik istehlakı isə 1.7-2.2 min kubmetr intervalındadır".

**Ekspert bildirir ki, statistikanın əhalinin gəlirləri və yoxsulluq səviyyəsi ilə bağlı etibarlı məlumatlar verməditi şəraitdə kommunal xidmət istehlakının səviyyəsi ev təsərrüfatlarının sosial statusunu (yoxsul, orta təbəqə və ultrazənginlər) müəyyən etmək baxımından çox mühüm mənbələrdən biri hesab edilir:** "Məlumat üçün deyim ki, Nazirlər Kabinetinin hazırda qüvvədə olan normativlərinə görə, 1 nəfər üçün aylıq qaz istehlakı norması 21 kubmetr, 4 nəfərlik orta statistik ailə üçün 84 kubmetrdir. Tarif Şurasının məlumatına görə isə hazırda aylıq istehlakı maksimum 140 kubmetr olan ailələrin sayı 1.2 milyon təşkil edir".

**İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu isə hesab edir ki, əhali üçün qaz və elektrik enerjisindən istehlaka tətbiq olunan limit tamamilə ləğv olunmalıdır:** "Qərarı istənilən halda təqdir edirəm, çünki iqtisadçıların əhaliyə satılan qaz limitinin ləğv edilməsi ilə bağlı irəli sürdüyü təklifə gec də olsa reaksiya verildi. Bu qış mövsümündə aldığım çoxsaylı mesajlardan bəlli olurdu ki, bir çox rayonlar qazla təchiz olunsa da, xüsusilə də kəndlərdə nəinki evləri, hətta məktəbləri belə sobalarda təzək yandırmaqla qızdırırdılar. Bu da Azərbaycanın regionlarının 95 faizi qazla təmin olunub deyənlərin gördükləri işə istehza yaradırdı. Nə olsun ki, qazlaşma yüksək səviyyədədir, onun pulunu ödəməyə xüsusilə də regionlarda yaşayan sıravi azərbaycanlıların maddi imkanı çatmırdı".

**Q.İbadoğlu təklif edir ki, qaz limiti tamam ləğv edilsin:** "Hesab edirəm ki, xüsusilə də region əhalisi üçün bu vacib məsələ növbəti qış mövsümünə qədər həllini tapmalıdır. Yanlış siyasətə görə, "Azəriqaz" son 2 ildə 1700 kub metrdən yuxarı qaz istehlak edənlərin ödənişlərini ya geri qaytarmalı, ya da cari və növbəti ilin ödənişlərindən çıxmalıdır. Eyni yanaşma elektrik enerjisini istehlak edən əhali qrupuna da şamil edilməli və istehlakçılar üçün limit aradan qaldırılmalıdır. Bu təkliflərin reallaşması həm qaz və həm də elektrik enerjisi sistemində limitlə bağlı olan korrupsiya hallarının aradan qalxmasına da töhfə olardı".

**Qeyd edək ki, qaz və enerji istehlakı limitlərinin tamamilə ləğvini zəruri hesab edənlərdən biri də Milli Məclisin üzvü, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalıdır. Tarif Şurasının qərarını "Yeni Müsavat"a şərh edən F.Ağamalı bildirir ki, limitin ləğv olunması ilə bağlı mövqeyində qalır. Onun sözlərinə görə, limiti tamamilə aradan qaldırmaq daha faydalı olardı:** "Bu, həm aztəminatlı ailələrin problemlərinin aradan qaldırılmasına müsbət təsir göstərərdi. Eyni zamanda Azərbaycanda kənd təsərrüfatının sənaye üsulu ilə çalışan müəssisələrinin stimullaşmasına səbəb olardı. İstehsal olunan məhsulların həm daxili bazarda qiyməti əlçatan olardı, digər tərəfdən, onun ixracında, həyata keçirilən əməliyyatlarda həmin məhsulların rəqabət qabiliyyəti də üstün olardı".

**Milli Məclis üzvü bu qənaətə öz araşdırmaları, həmçinin kifayət qədər müasir dövrün tələblərinə uyğun gələ biləcək düşüncələri özündə daşıyan iqtisadçılarla apardığı söhbətlər, keçirdiyi müzakirələr nəticəsində gəlib:** "Düşünürəm ki, təbii qazın və elektrik enerjisinin limitinin tamamilə ləğv olunması vətəndaşlarımızın maraqlarına uyğun olardı və ölkə prezidentinin islahatları ilə tamamilə üst-üstə düşərdi".

**F.Ağamalının fikrincə, təbii qaz və elektrik enerjisinə qoyulan limitin ləğvi ilə bağlı məsələ aktuallığını saxlayır:** "Tarif Şurası vur-tut limitin səviyyəsini 500 kubmetr qaldırdı, bu da 50 manat deməkdir. Hesablamalarımız göstərir ki, 1700 kubmetr istehlakçını bir qayda olaraq maksimum bir ay yarım görür. 500 kubmetr də haradasa yarım ay və ya ondan bir az çox davam edəcək. Nəzərə alsaq ki, Azərbaycanda qış 6 aydan çox davam edir, bu zaman ya limit daha çox artırılmalı idi, ya da tamamilə ləğv olunmalı idi".

**Deputat hesab edir ki, limitin tətbiqində mövsümə uyğun diferensiallaşma tətbiq olunmalıdır:** "Limiti qış aylarına tətbiq etmək olardı. Yaz aylarında da, məsələn, köhnə qiymətlərlə ola bilərdi. Yəni 6 ayda vətəndaşlarımız təbii qazdan daha çox istifadə edirlər, onu daha limitli tutmaq olardı. Qalan 6 ayda limitsiz olardı. Mənə elə gəlir ki, bu, daha kompromis, ədalətli yanaşmadır. Təəssüf ki, olmadı. İstehsal sektorunda isə başqa variant tətbiq etmək olar. Məsələn, dünyanın hər yerində var, fərqli qiymətlər ola bilərdi. Yəni gecə və gündüzün qiymət tarifləri müxtəlif ola bilər. Bu da olmadı".

Qeyd edək ki, əhali qazla yanaşı, elektrik enerjisinə tətbiq olunan limitin ləğvini də zəruri hesab edir. Qarşıdan enerji istehlakının yüksək olduğu yay mövsümü gəldiyini nəzərə alsaq, yaxın müddətdə enerji istehlakına tətbiq olunan qiymət limitinin aradan qaldırılmasının aktuallaşacağını söyləmək mümkündür. Bu baxımdan, hökumətin əhalidə narazılığın artmasını gözləmədən elektrik enerjisi limitinə də ən azı yenidən baxması və artırılması vacibdir.

Məlumat üçün bildirək ki, Azərbaycanda əhalinin illik elektrik enerjisi istehlakı 5-8 milyard kVtsaat ətrafındadır. Son 5 ildə ən yüksək istehlak - 8 milyard 71,5 milyon kVtsaat limitin tətbiq olunduğu 2016-cı ildə qeydə alınıb. 2017-ci ildə ev təsərrüfatları tərəfindən istehlak olunan elektrik enerjisi 7 milyard 134,6 milyon kVtsaata düşüb.

**"Azərişıq" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tanrıverdi Mustafayevin "Yeni Müsavat"a bildirdiyinə görə, ölkə üzrə əhali istehlakçılarının 80-82 faizi elektrik enerjisindən istifadə limiti həcmində enerji istehlak edir:** "Bu, limit tətbiq olunanda da beləydi, indi də. Yəni kiminsə limitə görə istehlakı azaltması olmayıb". Buna baxmayaraq, ASC rəsmisi bildirir ki, Tarif Şurası limitin artırılması və ya tamamilə ləğv olunması barədə qərar verəcəksə, "Azərişıq" ona əməl edəcək: "Biz icraçı qurumuq, hökumət hansı qərar verəcəksə, ona da əməl edəcəyik".

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

# “Bizi birləşdirən Vətən hissidir” - Fizuli Məmmədov

## RAİ prezidenti: “Azərbaycan adına böyük, bütün federasiya subyektlərinin təmsil olunduğu diaspor qurumunun olmaması ümumi diaspor fəaliyyətimizdə böyük bir boşluq yaratmışdı”

**Musavat.com-un suallarını Rusiya Azərbaycanlıları İttifaqının prezidenti Fizuli Məmmədov cavablandırır.**



***- Fizuli müəllim, aprelin 27-də təsis toplantısı keçirilən Rusiya Azərbaycanlıları İttifaqı ideyası necə yarandı?***

- Bilirsiniz ki, 30 ilə yaxındır diaspor fəaliyyəti ilə məşğulam - həm Dünya Azərbaycanlıları İttifaqına, həm Dünya Azərbaycanlıları Mədəniyyət Fonduna rəhbərlik edirəm. Rusiyada, Azərbaycanda, Avropada ötən 30 ildə böyük layihələr həyata keçirmişik. Ümumrusiya Azərbaycanlıları Konqresi ləğv ediləndən sonra Rusiyada nüfuzlu Azərbaycan diasporu qalmadı. Var olan təşkilatların rəhbərləri arasında uzun illərdir davam edən gərginliklər, ortaq qərarlar qəbul etməyə imkan vermirdi. Heç kimə sirr deyil ki, Rusiya Azərbaycan üçün həm geosiyasi, həm sosial yöndən önəmli ölkədir. 2 milyondan artıq soydaşımızın orada yaşaması Rusiyaya ən böyük diaspor potensialı olan ölkə statusu da qazandırır. Belə bir ölkədə Azərbaycan adına böyük, bütün federasiya subyektlərinin təmsil olunduğu diaspor qurumunun olmaması ümumi diaspor fəaliyyətimizdə böyük bir boşluq yaratmışdı. Rəhbərlik etdiyim DAİ və DAMF hər zaman regionlarla sıx işbirliyi içərisində olub. Əməkdaşlıq etdiyimiz təşkilatların rəhbərləri bizə yeni birlik modeli yaratmaq təşəbbüsümüzü üzərimizə götürməyi aylardır təklif edirdi. Nəhayət, bu ilin martında biz bir neçə diaspor qurumu ilə əməkdaşlıq haqqında niyyət protokolu imzaladıq. Ardınca bir çox regiondan analoji işbirliyi təklifləri gəldi və biz qərara gəldik ki, Moskvada forum keçirək, arzu edən, böyük birlik yaradılmasını istəyənlər bir araya gəlsin, gələcək strategiyamız müəyyən olunsun. Forumda 89 federasiya subyektindən 56-sı təmsil olundu. Şəffaf, konstruktiv müzakirələr keçirdik, vahid təşkilat ətrafında birləşmək ideyasına istisnasız hər kəs dəstək verdi və biz forumda Rusiya Azərbaycanlıları İttifaqının yaradılmasını elan etdik. Təsis toplantısında qurultaya hazırlıq üçün Təşkilat Komitəsi yaratdıq. Prosesi sürətlə aparmaqda qərarlıyıq. Vəkillərimiz sənədləşmə üzərində işləyir. Ümid edirəm, payızda qurultayımızı keçirə biləcəyik.

***- ÜAK Rusiya qanunvericiliyinə uyğun olmadığı üçün ləğv edilib. Bu haqda məhkəmə qərarında bildirilir ki, qurum Rusiya Federasiyası qanununun ictimai qurumlarla bağlı tələblərinə cavab vermir. Bu məsələnin arxasında siyasi çalarların varlığı da iddia edilir. Yaratdığınız qurumun rəsmiləşdirilməsi zamanı rəsmi Moskvanın analoji maneə yaradacağını ehtimal edirsinizmi?***

- İdeya yaranandan biz Rusiyanın tanınan, bu sahə üzrə ən professional vəkilləri ilə müzakirələr aparırıq. Qurumun yaradılması üzrə ilk addımdan, yəni təsis konfransından başlayaraq qurultayın keçirilməsi, İdarə Heyətinin yaradılmasından qeydiyyat üçün sənədlərin Ədliyyə Nazirliyinə təqdim edilməsinə qədər bütün proses onların nəzarəti altında Rusiya qanunvericiliyinə uyğun davam edəcək. Yeni quruma Rusiya Azərbaycanlıları İttifaqı adının verilməsi də onların təşəbbüsüdür. Bildiyiniz kimi, Rusiya Ermənilərinin İttifaqı uzun illərdir fəaliyyətdədir. Bu qurumun varlığı həm də hüquqi president yaradır. Qanun ermənilərə oxşar adda, eyni strukturda qurum yaratmaq imkanı verirsə, nədən azərbaycanlılara şamil edilməsin? Ümid edirəm, bizim vəkillərimiz yüksək professionallıq göstərəcəklər və Rusiya Azərbaycanlıları İttifaqını Rusiya Federasiyasının ictimai qurumlar haqqında qanunvericiliyinə uyğun yaradaraq bu məsələyə birdəfəlik nöqtə qoya biləcəyik.

***- Fizuli müəllim, erməni diasporundan danışdınız, hazırlıq prosesində onların təşkil etdiyi hər hansı neqativlə üzləşdinizmi?***

- Aydındır ki, ermənilər böyük birlikdən narahatdırlar. Bütün güclərini təbliğata yönəldiblər və həm rəsmi, həm də qeyri-rəsmi instansiyalarda Rusiya Azərbaycanlıları İttifaqı haqqında mənfi imic formalaşdırmağa çalışırlar. Onların niyyəti aydındır. Bilirlər ki, sağlam bir diaspor qurumunun yaradılması azərbaycanlıların nüfuzunu xeyli artıracaq, bu səbəbdən qeydiyyata qədər prosesi pozmağa cəhd edirlər.

***- Əsas iddiaları nədir?***

- Əsas odur əllərində üzərimizə gəlmək üçün heç bir rəsmi tutarqa yoxdur. RAİ-nin yaradılması üzrə təşəbbüs qrupunun, qurultayın keçirilməsi üzə Təşkilat Komitəsinin bütün üzvləri Rusiya vətəndaşlarıdır. Qanun bizə yaşadığımız, fəaliyyət göstərdiyimiz ölkədə ictimai fəaliyyətlə rəsmi məşğul olmaq hüququ verir, biz də bu hüququmuzdan istifadə edirik. İddialarından biri də qurumun Azərbaycana yaxınlığı haqqındadır ki, bu da absurddur. Çünki hüququ anlamda belə bir nüans yoxdur. Mənəvi baxımdan isə bu dünyanın istənilən millətinə məxsus diaspor fəaliyyətinin kökündə dayanan fəlsəfədir. Ölkəsindən kənarda yaşayıb milli - mədəni icma yaradan azlığı birləşdirən amil vətəndir. Üstəlik, vətən amilinə ən çox xidmət edən xalqlardan biri ermənilərdir. Elə azərbaycanlıların yaratdığı birliklərlə bağlı pozuculuq fəaliyyətinin kökündə də bu dayanır. Bizim vətən amalımıza gəlincə, Azərbaycan bizim üçün məbəddir. Dünyanın hansı ölkəsində yaşamağımızdan asılı olmayaraq vətən həssasiyyətimizi hər zaman qorumuşuq. Məni də, Rusiya Azərbaycanlıları İttifaqını bizimlə birgə yaradan şəxsləri də Azərbaycanla yalnız mənəvi tellər bağlayır. Digər xalqlarda olduğu kimi, bizim də dövlətimizin diaspor siyasəti bizim üçün prioritetdir. Ancaq fəaliyyətimiz Rusiya qanunvericiliyi çərçivəsindədir və belə də olmalıdır. İcmamızı daha da gücləndirmək, milli, mədəni varlığımızı qorumaq, Rusiya cəmiyyətində haqq etdiyimiz mövqeni əldə etmək üçün bu istiqamətdə fəaliyyət göstərəcəyik. Düşünürəm ki, Rusiya Azərbaycanlıları İttifaqı çox münasib bir dönəmdə yaranır. Həm ölkələr, həm liderlər arasında münasibətlər yüksələn xətlə davam edir. Bu faktorun Rusiya-Azərbaycan yaxınlaşması kontekstində həm də diaspor fəaliyyətinə müsbət təsir edəcəyinə inamım böyükdür.

***- Bütünlükdə Rusiya ictimaiyyətinin prosesə müraciətini necə dəyərləndirirsiniz?***

- Çox müsbət. Həm iş dünyasından, həm ictimai sektordan olan dostlar, tanışlar ideyamızı həm bəyənir, həm də dəstək verirlər. 2018-ci il prezident seçkisində namizədlərdən biri olan Roman İvanoviç Xudyakovun forumda səsləndirdiyi fikirlər bizim üçün çox qiymətlidir. Elə bir diaspor qurumumuz olmayıb ki, onun toplantısında Rusiya ictimaiyyəti prezidentliyə namizəd partiya sədri səviyyəsində təmsil olunsun. Roman İvanoviç azərbaycanlıları Rusiyanın sərvəti adlandırdı, bu ölkəni ən səmimi məhəbbətlə sevən, yüksəlişi üçün daim çalışan milli azlıqlar içərisində ən seçkin yerdə olduğumuzu dəfələrlə vurğuladı. O, israrla söylədi ki, Rusiya üçün hər zaman böyük işlər görən azərbaycanlılar idarəetmədə də təmsil olunmalıdırlar, çünki Dövlət Dumasında, yerli idarəetmə orqanlarında təmsilçilik bizim böyük potensialımızın daha effektiv istifadə deməkdir. O, bu mənada bütün icma üzvlərini fəallığa dəvət etdi. Belə bir miqyaslı siyasətçinin millətimiz haqqında xoş sözlər söyləməsi, konkret hədəflər göstərməsi sevindirici olduğu qədər də ciddi stimuldur.

***- Qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi yaradılandan sonra federasiyanın digər subyektlərindən də müraciətlər alırsınızmı?***

- 56 federasiya subyektinin təsis toplantısında iştirakı buna qədər tərəddüddə olanların da prosesə cəlb edilməsinə səbəb olub. Daha 16 bölgədən müraciətlər var - baxacağıq, dəyərləndirəcəyik. İstəyimiz odur ki, uzun illər zəhmətini Rusiyanın iqtisadiyyatına, elminə, sosial həyatına yönəldən insanlarımızın heç biri kənarda qalmasın. Gerçəkdən də azərbaycanlılar Rusiya üçün ciddi faktordur - investor kimi, alim kimi, xidmət sektoruna yeni trendlər gətirən çalışqan zümrə kimi. Çox sevinirəm ki, birlik təklifimizə Rusiyada yaşayan intellektuallar ilk reaksiya verənlərdən oldular. Sıralarımızda nüfuzlu akademiklər, müxtəlif sahələr üzrə professorlar, ictimai xadimlər var. Bu həm də o deməkdir ki, Rusiya Azərbaycanlılarının İttifaqı milli məsələlərimizi intellektual müstəvidə müzakirə edəcək, qərarlar yalnız günlük hədəflərə deyil, strateji məqsədlərə yönələcək. Yanımızda olan hər kəsə təşəkkür edirəm, gəlmək istəyənləri də milli düşüncə ətrafında birliyə dəvət edirəm. Yaratdığımız böyük birlik bizə gerçəkdən də geniş imkanlar açır. Güclü diaspor, həm də güclü Azərbaycan deməkdir. 200 illik erməni diasporunun bu gün Ermənistan üçün nələr etdiyi göz qabağındadır. Əminəm ki, 30 illik diaspor təcrübəmizlə, biznes, elm, mədəniyyət və ictimai sektorda olan insanlarımızın potensialı ilə biz yaxın 10-20 ildə böyük yol qət edə biləcəyik. Güclü Azərbaycan diasporu beynəlxalq məkanda güclü Azərbaycan dövləti deməkdir. Ona görə də mən ürəyində Azərbaycan sevgisi olan hər bir elm adamını, biznes sahibini, ölkədən kənarda yaşasa da milli dəyərlərimizi qoruyan hər bir kəsi Azərbaycan dövlətinin güclənməsi naminə bu böyük ideyaya dəstək verməyə çağırıram. Güclü diaspor bizim gələcək nəsillərə daha az problem qoymağımızın açarlarından biridir. Özünü azərbaycanlı sayan hər kəs üzərində belə bir mənəvi məsuliyyət olduğunu bir an belə unutmamalıdır.







❑ **Aygün MURADXANLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

**Son zamanlar Milli Məclisin spikeri Oqtay Əsədovun xaricdə bahalı mülklərinin olması ilə bağlı mediada məlumatlar yayılır. Ötən ay azpolitika.az saytında verilən məqalədə bildirilirdi ki, Oqtay Əsədovun Moskvada böyük biznes şəbəkəsi var: “”Triumph Palace" və ya “Triumf Palas” deyilən yer Moskvada ən hündür yaşayış binasıdır. Daha dəqiqi, böyük bir kompleksdir. Həm də yalnız Rusiyanın deyil, Avropanın da ən yüksək yaşayış binasıdır. Çardağı ilə birgə hündürlüyü 214 metr, qülləsi ilə birlikdə isə 264 metrdir.**

# Oqtay Əsədov niyə hədəfdədir...

## Akif Təvəkküloğlu: “Bütün bunlar saf bir insana atılan çamurdan başqa bir şey deyil”
## Fəzail Ağamalı: “Bunun arxasında duranlar Azərbaycanı sevənlər deyil"

Avropanın bu ən hündür yaşayış kompleksindən əlimizdə bəzi sənədlər var. Bu sənədlər təsdiq edir ki, Oqtay Əsədovun həyat yoldaşı Zemfira Əsədova bu binada iki lüks mənzilin sahibidir. Bunlardan birinin dəyəri təxminən 2-2,5 milyon dollardır. O birinin dəyəri isə 5-6 milyon dollara qədər yüksək ola bilər. Məsələ burasındadır ki, bu kompleksdə mənzillərin sayı mərtəbə yüksəkliyinə görə dəyişir. Nə qədər hündürdürsə, o qədər bahadır. Zemfira xanımın aldığı mənzillərdən biri Triumf Palasın 12-ci (65 nömrəli mənzildir), o biri isə 37-ci mərtəbəsində (372 nömrəli mənzil) yerləşir" - məlumatda bildirilir.


Oqtay Əsədov

**Daha sonra isə yenisabah.az saytında spikerlə bağlı məlumat yayılıb. Saytda bildirilib ki, məlumatı ictimailəşdirən Moskvadan Zaur Əliyev adlı şəxsdir. Məlumatda aşağıdakılar qeyd edilir:** “Spiker Oqtay Əsədovun kürəkəni Mehman Qocayevin Londonun ən bahalı bölgələrindən olan St. Johns Wood-da 1 milyonluq penthauzu (mülkü) üzə çıxıb. O bölgədə ki, orada ölkənin ən zəngin milyarderləri, məşhur aktyorları və pop-divaları yaşayır. Həmin mülklə bağlı sənəddə bildirilir ki, penthauzun alınması üçün ”Goldbek Investment" şirkətinə milyon funt vəsait ödənilib. Əmlakın alınması tarixi Mehman Qocayevin doğum günü ilə üst-üstə düşür. Hər ikisi yanvar ayının ikisi..."

Daha öncə Oqtay Əsədovun adı bəzi məmurlar kimi korrupsiya faktları, çirkli pulların yuyulması halları ilə bağlı hallanmayıb. Bəs hazırda onunla bağlı ard-arda bu cür məlumatların yayılmasının səbəbi nədir?

**Məsələ ilə bağlı “Yeni Müsavat”a danışan Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu bildirdi ki, bu, Oqtay Əsədova qarşı təxribatdır:** “Məlumatların bir adı var, o da təxribatdır. Bütün bunlar saf bir insana atılan çamurdan başqa bir şey deyil. Təbii ki, yazılanların hamısı yalandır”.

**Deputat Fəzail Ağamalı “Yeni Müsavat”a bildirib ki, Oqtay Əsədova qarşı kampaniya aparılır:** “Bir müddətdir ki, Azərbaycan dövlətçiliyində mühüm post tutan və mənim kifayət qədər təmizliyi ilə tanıdığım, bütün davranışlarını ölçüb-biçərək ortaya qoyan, millət vəkilləri ilə yüksək səviyyədə davranış sərgiləyən Oqtay Əsədova qarşı düşünülmüş kampaniya aparılmaqdadır. Ötən ay Moskvada, guya onun ailəsinə məxsus olan restoranla bağlı məlumatlar, indi kürəkəni ilə əlaqədar verilən yazılar göstərir ki, konkret mərkəzdən Oqtay Əsədova qarşı, onu nüfuzdan sala biləcək və həqiqətə uyğun gəlməyən informasiyalar tirajlanır. Düşünürəm ki, bu, Azərbaycanı istəməyən və dövlətçiliyimizi nüfuzdan salmağa çalışan adamlar tərəfindən həyata keçirilir. Təəssüf edirəm ki, Azərbaycanda bəzi siyasətçi deyilən şəxslər də bu avantüranın içərisindədir və Oqtay Əsədova qarşı şər-böhtan kampaniyalarında önə çıxmaqdadırlar. Oqtay Əsədovun kürəkəni deyilən şəxsin Londonda mülkünün olması mənə bəlli deyil. Ancaq düşünürəm ki, bunu belə qabardaraq kürəkəninin maşınını, Londonda olan ya olmayan mülkünü çəkərək, nə üçün Oqtay Əsədovun üstünə gedirlər? O, Oqtay Əsədovun qızının həyat yoldaşıdır. Mehman Qocayev Azərbaycanda kifayət qədər tanınan, ciddi vəzifələrdə çalışmış bir məmurun övladıdır. Niyə o məmurun deyil, məhz Oqtay Əsədovun adı çəkilir? Çıxarılan nəticə bundan ibarətdir ki, düşünülmüş şəkildə, olan və ya olmayan faktları Oqtay Əsədovun adına yazmaqla həm onun imicinin ləkələnməsi məqsədi güdülür, həm də Azərbaycan dövlətçiliyinə etimadsızlıq toxumu səpilir. Bunun arxasında duranlar isə heç də Azərbaycanı sevən insanlar deyil. Bunu Oqtay Əsədovun adı ilə bağlamaq absurd və qərəzlidir. Təəssüf ki, Azərbaycanın bəzi mətbu orqanları da bu kampaniyaya qoşularaq, yalan məlumatları ictimailəşdirirlər”.

**F. Ağamalı bildirib ki, Oqtay Əsədovu uzun illərdir ki, tanıyır:** “30 ilə yaxındır ki, onunla tanışam. Oqtay Əsədovu çox nəcib, öz imicini qoruyan, ətrafındakılara məsafəli, sivil anlayış nümayiş etdirən dövlət xadimi kimi tanıyıram və belə də qiymətləndirirəm. Bu cür yazılar Oqtay Əsədovla bərabər, Azərbaycan dövlətçiliyinin qolu olan Milli Məclisin nüfuzdan salınmasına xidmət edir”.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# İqtidar-müxalifət dialoqunu əngəlləyən səbəblər

## Siyasi ekspert: “Bunun üçün ilk növbədə qarşılıqlı etimad, hörmət və siyasi iradə olmalıdır”

**2019-cu ilin Azərbaycan tarixində təkcə sosial-iqtisadi islahatlar ili kimi deyil, həm də siyasi islahatlar ili kimi qalacağı bildirilir. Ölkə prezidenti tərəfindən ard-arda çoxsaylı sosial xarakterli fərmanlar və sərəncamların imzalanmasının ardınca siyasi məhbus kimi təqdim edilən 50-yə yaxın məhbusun azad olunması siyasi islahatların da başlanğıcının əlaməti hesab edilir. Bir sıra siyasilər hesab edir ki, siyasi islahatlara başlanması Azərbaycanda siyasi münasibətlər sisteminə, iqtidar-müxalifət münasibətlərinin yeni müsbət müstəviyə keçməsinə gətirib çıxara bilər.**

Görülən sosialyönlü müsbət tədbirlərin sosial-siyasi effektiv nəticələr verməsinə siyasi islahatların ciddi təsir edəcəyi bildirilir.

Siyasi ekspertlər hesab edir ki, siyasi partiyalarla dialoq bu istiqamətdə ən ciddi addımlardan biri ola bilər. Bunun üçünsə ilk növbədə hakimiyyət elə addımlar atmalıdır ki, cəmiyyətin müxtəlif düşüncəli adamlarını bir araya, bir masa arxasına gətirə bilsin.


Əli Orucov

Qeyd edək ki, 2015-ci ildən indiyə qədər hakimiyyətlə müxalifət arasında dialoq olmayıb. Ara-sıra müxalifətdən və YAP yetkililərindən “diaoloqa hazırıq” kimi açıqlamalar verilsə də hələ dialoq baş tutmayıb. Bəs iqtidar-müxalifət dialoqu niyə baş tutmur? Siyasi islahatların başlaması üçün də dialoq lazımdırmı?

**AMİP katibi Əli Orucov** bildirdi ki, əslində Azərbaycanda bu günədək iqtidar-müxalifət dialoqu olmayıb. 2015-ci ildə iqtidar təmsilçisi ilə siyasi partiyaların rəhbərlərinin görüşləri keçirilmişdi. Orada təkcə müxalifət partiyaları deyil, həm də hakimiyyəti müdafiə edən partiyalar da iştirak edirdi. Bu formatda keçirilən görüş isə təbii ki, iqtidar-müxalifət dialoqu deyil: “Keçirilən həmin görüşlər də parlament seçkiləri öncəsi beynəlxalq ictimaiyyətə nümayiş etdirmək üçün idi. Dialoq tamam ayrı şeydir. İqtidar isə real və nəticəli dialoqa meyl göstərmir. İndiyə qədər iqtidar-müxalifət dialoqunun baş tutmamağının əsas səbəbi iqtidarın müxalifətə yuxarıdan aşağı, rəqib deyil, qaragüruhçu kimi yanaşmasıdır. İqtidar bu cür yanaşdığı qüvvələrlə bir masa arxasında əyləşib ciddi-ciddi müzakirələr aparmağı özünə sığışdırmır.

İqtidar-müxalifət hər zaman dialoq şəraitində olmalı, ölkənin, cəmiyyətin problemlərinin həlli istiqamətində birgə səy göstərməlidir. Sivil cəmiyyətlərdə belədir. Azərbaycanda isə iqtidar-müxalifət hələ də sanki ayrı-ayrı dövlətlərdən gəlmiş kimidirlər. İqtidar-müxalifət dialoqu üçün ilk növbədə qarşılıqlı etimad, hörmət və siyasi iradə olmalıdır".

**Ə.Orucovun sözlərinə görə, dialoqda iştirak edənlər, bu prosesi də aparanlar dövlətin və cəmiyyətin idarə edilməsində həlledici təsirə malik şəxslər olmalıdır:** “Proses ictimai-siyasi duruma yön verə bilən liderlər, məsul şəxslər, qərarların verilməsində, siyasi kursun müəyyənləşdirilməsində etkisi olan şəxslərin birbaşa iştirakı ilə aparılmalıdır ki, öz müsbət nəticəsini versin. YAP-ın deputatları ilə müxalifət partiyalarının görüşünü iqtidar-müxalifət dialoqu saymaq düzgün olmaz. Tutaq ki, partiya sədrləri Siyavuş Novruzovla, Əli Əhmədovla bir masa arxasında əyləşdilər, lap saatlarla danışdılar. Bununla ölkədə nəyi həll etmək mümkündür ki? Təbii ki, heç nəyi. Çünki bu formatda görüşdə formal olaraq qabardılan problemlər elə görüş otağında da qalasıdır”.

**Ekspertin fikrincə, müxalifət düşərgəsinin özündə də bu mövzuda müəyyən tərəddüdlər var:** “Çünki etimad, inam yoxdur. Halbuki görüşlərin, dialoqun real nəticələrini görə bilsələr qarşı duran düşərgələr dialoq mühitinə maraq göstərərlər. Əgər ölkədə doğrudan-doğruya iqtidar-müxalifət dialoqu baş tutsa, əminəm ki, bir sıra ciddi problemlərin həllini asanlıqla çözmək mümkündür. Cəmiyyətdəki gərginliyi, qarşılıqlı nifrəti, inkarçılığı, qəzəbi, kini kifayət qədər aradan götürmək mümkündür. Bunu mümkün etmək vəzifəsi və məsuliyyəti isə daha çox iqtidarın üzərindədir. İqtidar heç bir manevə baxmadan, heç bir ilkin şərtlər irəli sürmədən təşəbbüs göstərsə, ölkəyə xeyir gətirən dialoq mühiti formalaşar.

İqtidardakılar hesab etməsin ki, onlar çox güclü olduqları üçün zəif, pərakəndə müxalifətlə bərabər hüquqda masa arxasında əyləşməyə lüzum yoxdur. Düşünürəm ki, dünyada və regionda gedən sürətli prosesləri, yaxud qlobal təhlükələri dərinliyi ilə anlayıb dəyişikliklər istiqamətində atılan addımları siyasi sferaya da tətbiq etmək lazımdır. Özü də bu nə qədər tez olarsa, o qədər yaxşı olardı. Sosial sahədə atılan müəyyən müsbət addımlar siyasi davamlılığını almalıdır".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

**Azərbaycanda istehlakçılara verilən təbii qazın keyfiyyətsizliyi, təzyiqin aşağı olması, xüsusilə qış aylarında saatlarla fasilələrin yaranması uzun illərdir əhalini narahat edir. İnsanların qaz təchizatı sahəsində yaşadığı problemlər ölkə rəhbərliyinin diqqətinə çatdırılıb. Bu, prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı çıxışından aydın olur. Həmin çıxışda prezident "Azəriqaz" İstehsalat Birliyinin fəaliyyətini tənqid edib.**

# "Azəriqaz" rəhbəri haqda prezidentə elə bir dosye verilib ki...

## Dövlət başçısının Əkbər Hacıyevin rəhbərlik etdiyi qurumla bağlı müşavirədə sərt danışmasının ilginc səbəbləri; İB rəhbərinin əndazəni aşan qanunsuzluqları onunla bağlı yaxın vaxtlarda qəti tədbirlərin görüləcəyini istisna etmir

**Prezident bildirib ki, qazlaşdırma Azərbaycanda ən yüksək səviyyədədir və bu il də qazlaşdırma ilə bağlı işlər aparılır:** "Biz imkanlardan maksimum istifadə etməliyik ki, bu gün hələ də qaz almayan qəsəbələrə, kəndlərə qaz xətləri çəkək. Şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verildi, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin. Eyni zamanda, "Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır. Bütün sahələrdə - elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət olmalıdır".

**"Azəriqaz"ın istehlakçılara qarşı qanunsuz davranışları barədə danışan Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlının "Yeni Müsavat"a dediyinə görə, İB tərəfindən "Qaz təchizatı haqqında" Qanunun, Nazirlər Kabinetinin 80 saylı qərarının bir neçə maddəsi pozulur:** "16 dekabr 2017-ci ildə SOCAR vitse-prezidenti Rəhman Qurbanovun təsdiq etdiyi "Sayğacla ölçülməyən qaz həcmlərinin hesabatının aparılmasına dair Metodiki tövsiyələr"ə əsasən "Azəriqaz" tərəfindən hazırlanmış qaydaların 4-cü bəndindəki qanunsuz düzəliş nəticəsində abonentlərə tətbiq olunan cərimə ikiqat artırılıb. Belə ki, SOCAR tövsiyələrinin 1.4.1 bəndinə əsasən abonentə cərimə tətbiq olunarkən dəymiş ziyanın 90 gün ərzində sərf olunan qaz həcmində hesablanması nəzərdə tutulsa da, Əkbər Hacıyev tərəfindən hazırlanan qaydalarda bu, 180 günlə əvəz olunub. Bundan əlavə, qazpaylayıcı ilə abonent arasında bağlanmış müqavilənin 2.1.1. bəndinə zidd olaraq (istehlakçını nominal təzyiqdən aşağı olmamaqla keyfiyyət göstəriciləri (tərkibi, sıxlığı, rütubətliliyi, istilik yaratmaq qabiliyyəti və digər) dövlət standartlarının tələblərinə uyğun olan qazla fasiləsiz və etibarlı şəkildə təmin etmək) qaz abonentlərə (xüsusən də qış aylarında) fasilələrlə, aşağı təzyiqlərlə verilir. Qaz kəsilir, veriləndə isə 15-20 dəqiqə sistemə yüksək təzyiqlə hava vurulur. Bunu da guya əhalinin təhlükəsizliyi üçün etdiklərini deyirlər. Halbuki yüksək təzyiqlə gələn hava sayğacları da sürətlə fırladaraq əhalinin pulunun mənimsənilməsinə səbəb olur. Yəni insanlar faktiki olaraq, adi havaya görə qaz qiymətində pul ödəyirlər".



Əkbər Hacıyev

**Komitə sədri "Azəriqaz" rəhbərliyinin bəzi müəssisələrə verilən qazı itki və əhalinin boynuna qoymaq istədiyi qənaətindədir:** "Rəsmi mənbələrin hesabatlarında qaz təchizatında böyük miqdarda qaz itkisinin olduğu qeyd olunur. 2016-cı ildə audit şirkəti "Ernst & Young" və ölkənin Hesablama Palatası "Azəriqaz"da yoxlama apararkən bir çox qüsurlarla yanaşı, istehlakçıların qazla təminatı zamanı böyük qaz itkilərinin də olduğunu qeyd etmiş və itkilərin aradan qaldırılması üçün həmin qurumlar tərəfindən təklif və göstəriş də verilmişdi. Rəqəmləri təhlil etdikdə, ən yüksək itkilərin regionlarda baş verdiyi müşahidə olunur. Təbii ki, bunun da əsas səbəbi rayon və kəndlərdə sayğaclaşmanın tam aparılmaması, infrastrukturun keyfiyyətinin aşağı olmasıdır. Eyni zamanda broylerlərin və istixanaların ("parnik"lərin-red.) da qaz itkilərində payı az deyil. Mətbuat buraya yönələn qanunsuz qaz xətləri barədə dəfələrlə araşdırma aparıb. Məhz bu səbəblərdən, qaz itkilərinin həcmi ildən-ilə artır. Halbuki 2009-2010-cu ildə "Azəriqaz"da struktur islahatları aparılarkən əsas məqsədlərdən biri itkilərin minimum endirilməsi idi".

**M.Qəhrəmanlının sözlərinə görə, qaz təchizatında itkilərin çox olmasının bir neçə mühüm səbəbləri var:** "Qaz uçotu işinin düzgün qurulmaması, bir çox iri müəssisələrə qeydiyyatsız qazın ötürülməsi, sayğacların xarab olması (əhali üçün quraşdırılan əksər G-4 markalı qaz sayğacının istismar müddəti 5 ildir. Faktiki isə əhalinin istifadəsində olan sayğacların 70 faizdən çoxu 6 ildən yuxarıdır ki, quraşdırılıb. Ona görə də qaz emal olunmamış vəziyyətdə ötürüldüyündə sayğacın sərf qeyd edən diafraqmaları tozdan, zir-zibildən tutulduğundan sərfiyyat tam qeyd edilmir), cari təmir işlərinin ümumiyyətlə aparılmaması, qazpaylayıcı stansiyalarda verilmiş texnoloji rejimlərə əməl olunmaması, təbii qazın mexaniki qarışıqlardan təmizlənmədən, qurudulmadan sistemə daxil olması və sair".

**Komitə sədri deyir ki, ötən il Əkbər Hacıyevin tapşırığı ilə Bakıda və rayonlarda əhaliyə qanunsuz və böyük həcmdə cərimələr tətbiq olunub:** "İstismar müddəti 5 il olan sayğaclara 6 ildən sonra müdaxilə adı altında cərimələr yazılırdı. Bizim də yardımımızla abonentlər "Azəriqaz"ı məhkəməyə verib cərimələri ləğv etdirdilər. Məhkəməyə üz tutanların sayı sürətlə artdı deyə, bu qanunsuzluğu azaltmalı oldular".

**Qazın keyfiyyətinə gəlincə, M.Qəhrəmanlı bildirir ki, sovet dövründə hətta birbaşa mədəndən alınan qazdan istifadə edilsə də, zəhərlənmə hallarına rast gəlinməyib:** "Biz indiki Qumadasında iş yerində mədəndən birbaşa çəkilən qazı ceyran sobasında yandırırdıq, heç nə də olmurdu. İndi necə olur ki, bütöv ailələr qazdan zəhərlənib ölür? Düşünürəm ki, bu, qazın tərkibi ilə bağlıdır. Bu sahədə sovet dövründəki ciddi nəzarət indi yoxdur. Burada korrupsiya ehtimalları da böyükdür. Müstəqil nəzarət qurumu olmalıdır - şəbəkəyə verilən qazın tərkibi müntəzəm olaraq yoxlanmalıdır".

**Məsələ ilə bağlı Modern.az-a açıqlama verən "Azəriqaz"ın baş direktorunun müavini Ruslan Əliyev deyib ki, ölkə rəhbərinin toxunduğu bütün məsələlər diqqətlə araşdırılacaq:** "Ötən ilin dekabr ayının 1-nə kimi "Azəriqaz" 80 saylı qərara əsasən, birtərəfli qərar tətbiq edirdi. Qeyd etdiyim tarixdən etibarən həmin qərar qüvvədən düşüb.

Qərarın qüvvədən düşməsi ilə biz heç bir abonentə hüquq-mühafizə orqanının, məhkəmənin qərarı olmadan, dəymiş ziyanı tələb etmirik. Məhkəmə sayğaca müdaxilə edildiyini, dəymiş ziyanı təsdiqlədikdən sonra abonentə borcu barədə bildiriş verilir. Ümumilikdə "Azəriqaz" tərəfindən sayğaclara müdaxilə olunmur".

**R.Əliyev qeyd edib ki, abonentlərə verilən təbii qazın keyfiyyətinin artırılması "Strateji yol xəritəsi"ndə də nəzərdə tutulub:** "2020-ci ildən Azərbaycanda Böyük Qaz Emalı Zavodu tikiləcək. "Azəriqaz"ın tədbirlər planında da bu məsələ öz əksini tapıb. Ölkə rəhbəri tərəfindən qeyd olunan problemlər yaxın vaxtlarda həll olunacaq. İndiki halda əhaliyə verilən təbii qaz "QOST"a uyğundur. Sadəcə, bəzi mədən qazlarının qarışması zamanı keyfiyyət aşağı düşə bilir. Amma dediyim kimi, zavod fəaliyyətə başladıqdan sonra əhaliyə verilən qaz tam keyfiyyətli olacaq".

**Neft sahəsi üzrə ekspert İlham Şabanın "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycanda istehlakçılara paylanan qazın emalı aşağı səviyyədədir:** "Metan qazı bütün yanma boyu mavi rəngdə olmalıdır. Bunun üçün hasil olunan qaz emal zavodunda bütün fraksiyalardan təmizlənməlidir. Bu fraksiyaların özü qiymətli xammaldır, kimya sənayesinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Rəsmi statistikaya baxsaq, görərik ki, Azərbaycanda istehlak olunan qazın cəmi 20 faizə qədəri emal olunur. Çünki emal zavodunun imkanları bundan artığına çatmır. 1959-cu ildə tikilmiş zavoddur, istismar müddətini çoxdan başa vurub. Belə zavodların ömrü maksimum 40 ildir, modernizasiya ilə 50 ilə çatdırmaq olar. Böyük Britaniyanın "Con Braun" şirkətinin 19 il əvvəl - 2000-ci ildə verdiyi rəyə əsasən bu zavodun modernizasiya imkanları mövcud deyil".

**Ekspert bildirir ki, qaz emalı zavodunun vəziyyətini nəzərə alaraq hökumət yeni zavodun tikintisinə vaxtında başlamalı idi:** "Bu işə 10 il əvvəl başlamaq lazım idi. Bizimkilər isə hələ gələn il başlamağı nəzərdə tuturlar. Halbuki yeni qaz emalı zavodunun inşası həm istehlakçıların təhlükəsizliyi baxımından, həm ekoloji baxımdan, həm də iqtisadi baxımdan son dərəcə vacib məsələdir. Emal nəticəsində qazdan əldə olunan maddələr kimya sənayesini qiymətli xammalla təchiz edərdi".

Prezidentin müşavirədəki çıxışından anlaşılır ki, Əkbər Hacıyevin fəaliyyəti ilə bağlı ölkə başçısına dosye verilib. Görünür, həmin dosyedə "Azəriqaz" rəhbərinin qanunsuzluqları faktlarla göstərilib. Və dosye o qədər çirkli olub ki, Əkbər Hacıyevin əhaliyə verdiyi çirkli qaz bunun yanında "toya getməli"di. Əgər doğrudan da belədirsə, Əkbər Hacıyevin vəzifədə çox qalacağı inandırıcı deyil. Prezidentin müşavirədəki tövründən də bunu müşahidə etmək mümkün idi.

**Xatırladaq ki, prezident müşavirədə yarıtmaz fəaliyyətlərinə görə tənqid etdiyi məmurları vəzifədə çox saxlamır. Yaxın keçmişdə bunun xeyli nümunələri var.**

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Saçın nə fərqi var?



**Samir SARI**

**Uzun illər öncəydi (təxminən 21-22 il əvvəl), bir gün 39 saylı marşrutda işləyən avtobusdan düşüb indiki "İçərişəhər" metrostansiyasına girəndə kassanın qabağında sifəti mənə olduqca tanış gələn yaşlı kişi gördüm. Kişi jeton satan xanıma çox mədəni və ləyaqətli şəkildə kompliment deyəndə mən onun yaşına və başına fikir verdim. Adamın azı 65 yaşı olardı və başında bir dənə də olsun ağ tük yox idi.**

Eskalatorla perrona enəndə ağsaqqalı (təbii ki, yaşına görə deyirəm, yoxsa onun üzü tərtəmiz təraş edilmişdi, ağ tükü yox idi) tanıdım. Bu 1960-70-ci illərdə çox məşhur olmuş, eyzən radiolarda konsertləri verilən xanəndələrimizdən biriydi. Adam gümrah və pozitiv idi. Amma saçı nədən bu qədər qaraydı, onu sonra bildim... Sonradan onu da bildim ki, sənət camiəsində bu, qəbul edilmiş normadır. 7-8 il qabaq İbrahim Tatlısəsin başına güllə dəyəndə həkimlər onun qapqara saçlarını qırxdılar, 3-4 həftədən sonra İbo kamera önünə çıxanda məlum oldu ki, ağsaçlı, ağsaqqal kişidir - yeni tüklər ağ çıxmışdı və hələ boya görməmişdi.

Var belə adamlar... Yaşlanmaq istəmirlər. Amma bu, onların əlində olmadığı üçün gücləri ona çatır ki, müəyyən vasitələrdən yararlanaraq, yaşlı görünmələrini pərdələsinlər. 5-6 yaş cavan görünmək üçün nələrə əl atırlar.

İdmanı, pəhrizi hesaba almamaq olar. Bu normaldır. Adam istəyir, gümrah qalsın, yemək-içməyinə fikir verir, müntəzəm idman təmrinləri yerinə yetirir, canı da sağ olur. Bu heç.

Bir də var, keçəl başa tük əkdirmək, ağaran saçları boyamaq, üzün dərisini çəkdirmək, əməliyyatla piy götürtmək və sair və ilaxır.

Əslində bunlar da anormal deyil. İnsan istəyir ki, estetik baxımdan gözəgəlimli olsun, eybəcər olmasın, ətrafdakılarda xoş təəssürat doğursun.

İntəhası, bizim mühafizəkar camaat saçını boyayanlara və başına tük əkdirənlərə pis baxır. Ümumiyyətlə, yaxın coğrafiyamızda tüklə bağlı problem var. Bəzi qonşu ölkələrdə də üzlərini qırxanları "ibnə" deyib qaralayırlar. Hətta 100 ilin dünyəvi dövləti olan Türkiyədə artıq 17-dən 77-yə saqqalsız kişi tapmaq müşkül məsələdir.

Bir dəfə başa tük əkdirmək məsələsindən söz düşmüşdü, əməkdaşlardan biri adını çəkərək dedi ki, filan müğənni (hazırda o, Amerikada yaşadığı üçün adını çəkmirəm, "qrin-kard" udub gedib) başına 1-i 1 dollardan 15 min tük əkdirib. O biri də dünya üzrə tanınan 5-6 milyarderin, bir o qədər prezidentin adını çəkdi, dedi, onlar da keçəldirlər (və ya saçları seyrəkdir), istəsələr, başlarına 150 min tük əkdirərlər, amma eləmirlər. Başqası da dedi ki, onlar elə etsələr, imicləri dəyişər, xarizmaları cızılar, reputasiyaları bərbad olar, ona görə bu işdən vaz keçirlər.

Buradan o nəticə çıxır ki, reputasiya vizual görünüşdən ötədir. Yəni xalqın arasındakı ciddi ad-san daha üstündür, nəinki bir-iki nazlı dilbərin "aaa, siz necə də cavan qalmısız, əla görünürsüz" deyə səmimi və ya qeyri-səmimi olduğu bilinməyən komplimentin yaratdığı şən ovqat.

Bir-iki dost tanış var, güzgü qabağında duranda saçlarına dən düşməsini özlərinə dərd edirlər. (Yeri gəlmişkən, şairlərimiz və aşıqlarımız da vaxtilə öz saçlarına müraciət edərək "ağarmayın" məzmunlu xahişlərdə, sitəmlərdə bulunublar). Onlara deyirəm ki, vecinizə də almayın, saçın rənginin və ya başda hansı sıxlıqda qalmasının əhəmiyyəti yoxdur. Çox dərd edənlərə isə başqa tövsiyələr verirəm. Amma onlar o tövsiyəyə qulaq asmağa risk eləmirlər, elə bilirlər ki, sonra rişxənd edərəm, sataşaram. Əsla. Sadəcə, bir neçə kupletlik həcv yazaram. Təxminən belə bir şey:

Lələyə, bax, lələyə,
Əl atıb bir kələyə.
Saçına boya qoyub,
Yenə dönüb kələyə.

Zarafat edirəm, yazmaram. Yazsam da, ictimailəşdirmərəm, eləcə özünə deyərəm.

Uzun sözün kəsəsi, təbii olmaq daha yaxşıdır, türkün sözü, coluq-cocuğun əlində meymuna dönməkdənsə, qoy sənə ağsaqqal desinlər, nə olacaq ki?

Belə daha yaxşıdır. Şübhələrdən xilas olursan. Yoxsa bir xanım bir dəfə saçını boyayan ərinə deyib ki, xeyirdirmi, sən niyə belə cavan və yaraşıqlı görünmək istəyirsən. O da deyib ki, xalqım üçün, pərəstişkarlarım üçün. Qadın daha da əsəbiləşib: "Sən İbrahim Tatlısəssən, ya kimsən? Stomatoloq adamsan, get dişini düzəlt dəə".



# Limitsiz dəyişikliklər

**Zamin HACI**
zaminhaci@gmail.com

"Küləklər istiqamətini dəyişəndə bəziləri divar tikir, bəziləri isə yel dəyirmanı"

*(Çin ata sözü)*

**Təqazın limiti də artırıldı, uca millətimizin qazının qabağını almaq olmayacaqdır. Dünən keçmiş bayramlarını ürəklərində qeyd edən zəhmətkeşlərimiz başa düşüblər ki, doğrudan da dünyada ağlamayana məmə yoxdur. (Ya da pəpə - dəqiq bilmirəm. Kimə hansı lazımdırsa, onu oxusun). Biz ağlaşırıq, hökumət tədbir görür. Ağlayıb soğanı da ucuzlatdıq, halbuki soğan özü bütün dünyada adamları ağlatmağı ilə tanınır. Nəyə görə ucuz oldu? Çünki hökumət soğanı xaricə çıxartmağa bir növ embarqo qoymuşdu.**

Zəhmətkeşləri yadımıza salmışkən, bir vaxtlar 1 may bayramını doğrudan çox təntənəli keçirərdik. Parad, şənlik, mahnı-filan... Bu bayramın tarixi, deyilənə görə, 19-cu əsrdə 8 saatlıq iş günü uğrunda fəhlələrin mübarizəsindən yaranmışdır. İndi isə bizdə nə fəhlə sinfi qalıb, nə iş günü, nə mübarizə. Hətta camaat gündə 10-15 saat işləməyə hazırdır, təki iş tapa bilsin. Tək bizdə belə deyil. İbrahim müəllim demişkən, götürək elə qonşumuz Yaponiyanı. Orada camaat iş saatından artıq işləmək uğrunda mübarizə aparır. Bir azdan robotlar hamımızı əvəz eləyəndə lap komediya qopacaqdır. Ucundan-qulağından bizə eyham vurublar: Sofiya xanım adlı robotu göstəriblər. O cümlədən rəqs eləyən, kabab çəkən, mollalıq eləyən, dərs deyən, yük daşıyan, qəzet yazan robotlar vardır. Dünən xəbər gördüm: süni ət də çıxıb. Daha dana saxlamaq, qoyun otarmaq kimə lazımdır? Çoban da işləyə bilməyəcəyik. Axırımız çatıb, qardaşlar. Gəlin həm də buna görə bir-birimizi qırmayaq, mehriban olaq, Azərbaycanımızı sevək, dünyada tanıdaq!

Qayıdıram qaz temasına, çünki yazımız əsas enerjisini oradan almaqdadır. Zarafat deyil, hökumət hər birimizə ildə faktiki 50 manat yardım eləmişdir. Özümüzü yaxşı aparsaq, hovuza su da buraxacaqlar. Əlamətlərə görə yaxşı aparırıq. Dünən Nazirlər Kabineti yanında adqoyma idarəsinin müdiri açıqlama vermişdi, deyir, camaat bu il uşaqlarına 10 yeni ad qoymuşdur. Onlardan biri Human adı idi. Bunun mənası latınca "insan" deməkdir. Demək, humanizm, insanpərvərlik nə cür çoxalıbsa, xalq bunu uşaqların adında yaşatmağa qərar vermişdir. Ümid edirəm, İslahat oğlan adı, Dinamika qız adı da eşidəcəyik. Bəlkə var, biz bilmirik. Elə idarənin açıqlamasında mənə təəccüblü gələn bir neçə ad vardı: Aytər, Elyar, İmanə və sairə. Təəccübümün səbəbi isə idarənin bunları yeni, ilk dəfə qoyduğumuz uşaq adları sayması idi. Halbuki sadəcə Google-də bu adları yazsan, neçə yaşlı-başlı vətəndaşımızın adı çıxacaqdır. Bəs niyə nazirlik bunları yeni ad sayır? Görünür, köhnə aytərlər və elyarlarımız hamısı xaricə gedibdir. Yeniləmək lazım gəlibdir.

Analoqu olmayan insanpərvərlik və istiqanlılığımızın başqa əlaməti Bakının bir qəsəbəsində tapılmışdı. Orada, yaddaşım məni aldatmırsa, Zığ qəsəbəsində, 3 ayrı binanın sakinlərinin eyni ünvanı var idi. Çox ləzzətli əhvalatdır, təsəvvür elə, oturmusan evində, səninlə eyni evdə həm də başqa iki ailə "yaşayır". Bir qadın dedi ki, getmişəm ASAN-xidmətdən arayış alım, mənə deyirlər sənin 4 oğlun, 6 qızın, 2 ərin, 3 qayınanan var. Halbuki qadının cəmi 1 uşağı varmış. Əsl Xoşqədəm xanımın verilişinə layiq ünvan idi. Bəs bunların hərəsinə başqa ünvanlar verməк olmazmı? Təbii, olar. Ancaq o zaman həyatın nə gözəlliyi qaldı? Elə dövlət idarəsi də bir adresi 3 fərqli evə verməklərini izah edə bilmədi, yalnız onu dedi ki, üzərində işləyirik, gələcəkdə ola bilsin hərənin ayrı adresi olsun. Heyf. O cür ekzotika, o cür qaynayıb-qarışma aradan qalxacaqdır.

Qərara aldım, yazını da burada azaldım, limiti keçməsin.



# Moskvadan Bakıya jest - Kreml Paşinyanı yenə pərt etdi

## Əsir və girovların "hamının hamıya" prinsipi üzrə dəyişdirilməsi məsələsi təzədən gündəmdə; Rusiya Azərbaycanın yanında etimadını artıra bilər, əgər...; Kreml Qarabağ məsələsində ABŞ-ın fəallaşmasından niyə narahatdır?

**Ermənistanın baş naziri Nikol Paşinyan inqilabdan keçən 1 ildə Rusiyaya çoxsaylı sədaqət andları içib reveranslar eləsə də, o sırada vəd etdiklərinin əksinə olaraq, işğalçı ölkəni Rusiya siyasi-hərbi orbitində saxlasa da, hələ ki prezident Vladimir Putinin rəğbətini qazana bilməyib. Kremldə bu gün də ona - öz komandasını "Qərbin uşaqları"ndan qurmuş Paşinyana yad kimi, şübhəli nəzərlərlə baxır, tam etimadın yaranması üçün sonuncudan əlavə nələrsə gözləyirlər.**

Məsələn, Rusiya liderinin dostu, sabiq prezident, Xocalı hərbi canilərindən olan Robert Köçəryan Putinin xahiş-minnətinə rəğmən, hələ də həbsdə saxlanılır. Onun buraxılması isə Kreml başçısını bəlkə bir az yumşaldardı. O da gözlənilmir.

*****

Təbii ki, Paşinyan da Moskvanın ona qarşı Serj Sərkisyan qədər isti olmadığının fərqindədir. Nikol eyni zamanda, Avropa Birliyinin, ABŞ-ın Ermənistanın indiki rəhbərinə artıq bel bağlamadığını bilir. Yəni Paşinyan əlini Qərbdən üzmüş kimidir. Odur ki, vəziyyəti öz xeyrinə dəyişmək, Rusiyanın tam dəstəyini almaq üçün əlindən gələn edir. Rusiya baş naziri Dmitri Medvedyevin bu günlərdə İrəvanda olduqca isti qarşılanması, Paşinyanın onu hətta öz evinə qonaq çağıraraq, xüsusi lütfkarlıq göstərməsinin tək səbəbi də onun Medvedyev vasitəsilə Putinə növbəti sədaqət mesajını çatdırmaq istəyi olub. Yəni "artıq mən də sizdənəm, cənab Putin, buna şəkk eləməyin".

**Ancaq nə qədər qəribə də olsa, Rusiya baş naziri ölkəsinə qayıdar-qayıtmaz, Moskvadan Qarabağ məsələsi ilə bağlı Paşinyanı pərt edən açıqlama gəlib. Özü də ölkənin baş diplomatından.**

**"Rusiya münaqişə zonalarında etimadın yaradılması üçün əsirlərin və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsinə çağırır". Bu sözləri srağagün Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada keçirdiyi mətbuat konfransında deyib.**

"Biz daim belə situasiyalarda tutarlı humanitar həllərin tərəfdarıyıq: cəsədlərin dəyişdirilməsi, hərbçilərin, girov saxlanılan şəxslərin "hamının hamıya" prinsipi üzrə dəyişdirilməsi. Biz hesab edirik ki, belə addım münaqişə zonalarında etimad mühitinin yaradılmasına xidmət edəcək, istər Yaxın Şərqdə olsun, istər Dağlıq Qarabağda, istər Ukraynanın cənub-şərqində",- deyə Rusiya XİN başçısı qeyd edib.

*****

Yada salaq ki, rəsmi Bakı bir neçə dəfə Ermənistanı əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsinə çağırıb. Ermənistan hökuməti isə konkret olaraq, Dağlıq Qarabağda girov saxlanılan Kəlbəcər köçkünləri Şahbaz Quliyev və Rusiya vətəndaşı olan Dilqəm Əsgərovu təhvil verməyəcəyini bildirir - baxmayaraq ki, erməni cəmiyyətində də əsir və girovların dəyişdirilməsi ilə bağlı Bakının təklifi müsbət qarşılanıb. Hətta məsələ ilə bağlı Paşinyana təzyiq üçün ölkədə etiraz aksiyaları keçirilib, yollar bağlanıb.

Bununla belə, Moskva israr edərsə, bu dəfə vəziyyət dəyişə bilər. Ola bilsin, Paşinyan da Moskvadan elə bu xahişi gözləyir ki, həm Kremlə xoş gəlib öz yerini yaxşı eləsin, həm də daxili auditoriya qarşısında öz sifətini saxlasın və siyasi opponentləri sakitləşdirərək bəyan eləsin ki, "orada Kremlin iradəsi var, Moskva israra elədi, biz də razı olduq".

"Yeni Müsavat" onu da yada salır ki, Azərbaycan və Ermənistan rəhbərlərinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə bu ilin martında Vyanada keçirilən ilk rəsmi görüşündə də humanitar məsələlər, o cümlədən əsir və girovların dəyişdirilməsi diqqət mərkəzində olub.

*****

Aydındır ki, böyük sülh anlaşması yolunda ilk addım humanitar tədbirlərdən ibarət olmalıdır. Bəs Rusiya bu yöndə real addım atarmı?

Sirr deyil ki, Moskva əlində unikal imkanlar ola-ola, Dağlıq Qarabağ məsələsinin həllinə tələsmir, işğalçı tərəfə təzyiq eləmək istəmir. Bu da Azərbaycanda haqlı narazılıq doğurur - rəsmi Bakı bəzi mülahizələr səbəbindən bunu açıq büruzə verməsə də.

Kremldə bunu bilməmiş deyillər. Fakt budur ki, Rusiya lideri Vladimir Putin 19 ildir ölkənin sükanı arxasında olsa da, Qarabağ konfliktinin dinc və ədalətli həllinə ciddi töhfə verməyib. Əksinə, 2016-cı ilin aprelində Azərbaycan Ordusunun ərazilərimizin azad edilməsi üçün başladığı uğurlu əməliyyatları erməni tərəfin xahişi ilə dayandırıb.

Ancaq Kreml səmimi şəkildə istəsə, heç olmasa, Lavrovun dediyi kimi, Bakının zaman-zaman irəli sürdüyü, əsir və girovların "hamını hamıya" prinsipi üzrə dəyişdirilməsinə nail olar. Bununla da problemin həllində maraqlı olduğu görüntüsü yaradar. Məhz "görüntü", çünki bu, avtomatik şəkildə konfliktin həllində dönüş anlamına gəlməyəcək.

Ancaq o da var ki, hələ ki konfliktin həllində yox, onun idarə edilməsində maraqlı olan Moskva atəşkəs rejiminin sonsuzadək sürməyəcəyini, işğal rejiminin isə potensial müharibə riski daşıdığını yaxşı bilir. Müharibə isə Rusiyanın regionla bağlı strateji maraqlarına cavab vermir. Ən azından son illər münasibətlərin xeyli dərinləşdiyi Türkiyə ilə Qarabağ məsələsi üzündən toqquşmaq, Türkiyə və Azərbaycanı itirmək riskinə görə.

Başqa yandan, bəllidir ki, artıq ABŞ Qarabağ məsələsində patronajlığı ələ almaq üçün diplomatik səylərə başlayıb. Dövlət katibi Mayk Pompeo Azərbaycan və Ermənistan xarici işlər nazirlərini görüş üçün Vaşinqtona dəvət edib. Bunun ardınca prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan da Amerikaya dəvət ala bilərlər.

Bu və digər səbəbdən hazırda Rusiyanın özünün xüsusən də Azərbaycan qarşısında inam-etimadını artırması bir imperativ kimi görünür. Bundan ötrü isə Bakının təklif elədiyi "hamını hamıya" prinsipinə real dəstək olmaq Kremlin yaxın perspektiv maraqlarına tam uyğun olardı. Ən azından, məsələdə hansı vasitəçi dövlətin söz sahibi olduğunu dünyaya göstərmək baxımından...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019



# "Erkən parlament seçkiləri gündəmdən çıxmayıb"

## Əli Əliyev: "İyul-avqust aylarında da seçki qərarı elan edilə bilər"

**Keçən ilin sonlarından aprel ayında növbədənkənar parlament seçkilərinin olacağı proqnozları verilirdi. Aprel bitdi, lakin seçki qərarı verilmədi.**

İlin ilk aylarından ölkədə ciddi sosial islahatların başlanması və bu prosesin hazırda hökuməti daha çox məşğul etməsi, həmçinin ölkə daxilində və regionda müşahidə olunan siyasi proseslər, hərəkətlilik apreldə növbədənkənar seçkiyə gedilməsi məsələsini bir müddət üçün arxa plana keçirib. Bu barədə "Yeni Müsavat"a daxil olan məlumatda deyilir. Xəbərdə qeyd edilir ki, ötən ilin sonlarında yuxarı dairələrdə yazda növbədənkənar parlament seçkilərinin keçirilməsi məsələsi barədə demək olar ki, yekdil mövqe formalaşmışdı. Rəsmi qərarın fevralın sonlarında veriləcəyinə qədər məsələ dəqiq olub. Yuxarıda sadalanan səbəblər üzündən növbədənkənar seçki məsələsində hələlik bir qədər gözləmək məqsədəuyğun sayılıb.

Məlumata görə, bu ilin sonunda-dekabrın 27-də bələdiyyə seçkilərinin keçiriləcəyi faktoru da növbədənkənar parlament seçkiləri məsələsində tərəddüdlər yaradıb. Bununla belə, mənbə bildirir ki, növbədənkənar seçki məsələsi hələ gündəmdən tam olaraq da çıxmayıb. Sadəcə, bir müddət üçün gözləmə mövqeyi seçilib.

**VİP sədri Əli Əliyev də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, erkən parlament seçkiləri məsələsi gündəmdən çıxmış sayılmamalıdır:** "Mənim müşahidələrimə görə, bu il növbədənkənar parlament seçkiləri keçiriləcək. Bu fikir ulduzların düzülüşündən gələn qənaət deyil. Məlumat da deyil. Çünki son prezident seçkilərinin vaxtını heç prezidentin yaxın ətrafı da bilmirdi. Qərar qəfil verildi. Deməli, yenə də belə fikir olacaqsa, haqqında xəbərin sızma ehtimalı çox azdır.

Hesab edirəm ki, parlament seçkilərini bir sıra daxili və xarici amillər şərtləndirir.



Dünya Azərbaycana yönəlik münasibətini dəyişir. Əlamətləri də var: İran və Rusiya siyasi rəhbərliyinin yanvar-mart aylarında münasibəti, Azərbaycan nümayəndə heyətinin Fransa səfəri və görüşlərin rankı, prezidentin Çin səfəri və imzalanan sənədlər, Avropa İttifaqı və Azərbaycan arasında hazırlanan saziş və sair. Bunlar kifayət qədər ciddi kənar faktorlardır. Daxildə də baş verənləri küçümsəmək olmaz. Nəsil dəyişikliyi, oliqarxiyanın çökdürülməsi və sair. Hər iki faktor çuğlaşanda, vəziyyət əyani şəkildə görünür.

Belə şəraitdə keçmiş oliqarxiyanın nəzarətində olan parlament təhlükə mahiyyəti kəsb edir. Çünki müstəqillik dövründə hakimiyyət dəyişiklikləri parlament üzərindən olub. Bütün seqmentləri dəyişən heyətin parlamenti saxlaması məntiqsiz görünür. Ona görə də hesab edirəm ki, seçkilər qaçılmazdır".

**Erkən seçkilərin nə vaxt olacağı ehtimalına gəlincə, partiya sədri hesab edir ki, seçki bu ilin iyul-avqust aylarında ola bilər:** "Bunun isə səbəbləri var. Bu aylar siyasi baxımdan "ölü dövr" hesab edilir, siyasi baxımdan ən passiv aylardır. Təbii ki, bu analizdir. Lakin qüsurlu da ola bilər. Çünki hakim təbəqə seçkilərdə təhlükə duysa, addım atmaya da bilər. Amma az ehtimal edirəm bu gedişatı".

27 dekabrda keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq isə davam edir. Seçki Məcəlləsinin tələbinə əsasən 2019-cu il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə seçici siyahısının dəqiqləşdirilməsi həyata keçirilir. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən verilən məlumata görə, siyahıların yüksək səviyyədə dəqiqləşdirilməsi üçün bu genişmiqyaslı işə respublikadakı bütün aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub və dəqiqləşdirmə prosesində həm Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, həm də yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilir. Qanunvericiliyə uyğun olaraq, vahid seçici siyahısının tərtib edilməsi ilkin olaraq məntəqə seçki komissiyaları tərəfindən aparılıb. Məntəqə seçki komissiyalarının üzvləri yerli icra orqanları və bələdiyyə qurumları tərəfindən təqdim edilən məlumatlar əsasında öz məntəqələrinin seçici siyahısını dəqiqləşdirərək, məntəqələr üzrə tərtib olunan seçici siyahılarını müvafiq dairə seçki komissiyalarına təqdim ediblər.

Mərkəzi Seçki Komissiyası da öz növbəsində vahid seçici siyahısının ölkə üzrə tərtib edilməsini həyata keçirəcək. Bu prosesə ən geci may ayının sonuna qədər yekun vurulması və ölkə üzrə yenidən tərtib olunan vahid seçici siyahısının Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsində yerləşdirilərək ictimailəşdirilməsi nəzərdə tutulur.

27 dekabra-bələdiyyə seçkilərinə hələ xeyli vaxt qaldığını nəzərə alsaq, seçici siyahılarının indidən hazırlanması növbədənkənar parlament seçkilərinin nə zaman keçiriləcəyi barədə son zamanlar yayılan xəbərləri yada salır. Seçici siyahılarının hazırlanması prosesinə isə ən geci may ayının sonuna qədər yekun vurulacağı bildirilir. Bu məqama diqqət çəkən siyasi ekspertlər hesab edir ki, seçici siyahılarının indidən tərtib olunması və prosesin ən geci may ayında yekunlaşmasının nəzərdə tutulması növbədənkənar parlament seçkilərinin yayda keçiriləcəyi ehtimalını da yaradır.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Ermənistanın "ipək" yuxuları...

**Hüseynbala SƏLİMOV**



**"Avrasiya kontinenti 10 ildən sonra inanılmaz dərəcədə dəyişəcək. Tutaq ki, qaz kəmərləri bizdən yan keçir, neft kəmərləri və dəmir yolu xətləri də həmçinin. Amma doğrudanmı biz heç olmasa, avtonəqliyyat proqramlarına da cəlb oluna bilmərik?" - bəli, bunu Pekində 40 dövlət başçısının, o cümlədən də Azərbaycan prezidentinin iştirakı ilə keçirilən ikinci "İpək yolu" forumunu şərh edən Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan yazıb.**

Biz də əlavə edək ki, sovetlərin süqutundan sonra tarixi ipək yolunun bərpası ideyası təkcə nəzəriyyəçi geopolitiklər və geoiqtisadçılar yox, elə praktiki siyasətlə məşğul olanların da arasında populyar meqa-layihə oldu.

Amma uzun müddət məlum deyildi ki, bu yöndəki düşüncələr nəyə aid edilsin; politologiyaya, yoxsa ki, futurologiyaya? Amma zaman keçdikcə aydın oldu ki, bu heç də mücərrəd və yaxud fantastik bir layihə deyil, onu reallığa çevirmək mümkündür, yetər ki, bunun üçün dünyanın aparıcı dövlətləri buna ciddi yanaşsın.

Maraqlısı budur ki, ideyanın gerçəkləşməsində aparıcı rollardan biri tamam gənc dövlət olan Azərbaycanın boynuna düşdü. Onun populyarlığına baxmayaraq qeyd etdiyimiz kimi, aparıcı dövlətlər buna müəyyən şübhə və tərəddüdlə yanaşırdı, əvvəl hətta regionun ilk böyük layihəsi olan Bakı-Tiflis-Ceyhan kəmərinin reallaşacağına inanmırdılar.

Türkiyənin mərhum prezidenti S.Dəmirəl müsahibələrinin birində demişdi ki, Bakı-Tiflis-Ceyhan layihəsini "iki dəniz əfsanəsi" adlandırırdıq və bu haqda ilk dəfə mərhum prezident H.Əliyevə deyəndə o, qayıtdı ki, mən bu əfsanəni reallığa çevirəcəm...

Bəli, Heydər Əliyev dedi və etdi - "iki dəniz əfsanəsi" gerçək oldu. Bakı-Tiflis-Qars dəmiryolu layihəsi reallaşandan sonra isə hamı başa düşdü ki, ipək yolu ideyası da reallıq ola bilər.

Odur, təsadüfi deyil ki, ötən həftə siyasi təhlilçilərin diqqəti Pekinə yönəlmişdi, çünki burada növbəti "Bir kəmər, bir yol" sammiti işinə başlamışdı. Bu ideyanın geosiyasi məzmunu haqqında müxtəlif fikirlər səslənir, bəzən onlar diametral dərəcədə zidd də ola bilir, amma ən əsası budur ki, artıq 150 -dən çox dövlət təşəbbüsə qoşulubdur.

Sammitin gedişində nəzərə çarpan mərkəzi fiqurlardan biri də Azərbaycan prezidenti İ.Əliyev idi, o səbəbdən ki, böyük tranzit layihələrinin müzakirəsində Bakı ən mühüm həlqələrdəndir, çünki belə layihələrə qoşulmaq və onun ən fəal üzvlərindən olmaq üçün həm siyasi iradəsi və həm də yetərincə maliyyə resursları var.

Konkret olaraq ipək yolu layihəsinə gəldikdə isə, əlbəttə, onun reallaşması digər dövlətlərdən də, xüsusilə Qazaxıstan və Türkmənistan kimi Xəzəryanı dövlətlərdən də asılıdır, çünki layihənin gerçəkləşməsinin bir variantı da trans-Xəzər tranzit dəhlizinin yaradılmasıdır.

Üstəlik, burada Çinin də konstruktiv marağının olması tələb olunur, çünki layihənin bütün variantlarında ona ən mühüm rollardan biri ayrılır.

Birləşmiş Ştatlara gəldikdə isə, əlbəttə, heç bir qlobal ideya onların dəstəyi olmadan reallaşa bilməz və burada problem ondan ibarətdir ki, D.Tramp hakimiyyətə gələndən sonra ABŞ-Çin münasibətləri sərinləşib.

Amma ABŞ uzun müddətdir öz variantını gerçəkləşdirməyə çalışır - söhbət, trans-Xəzər dəhlizi haqdadır. Mayın 22 - 23-də Vaşinqtonda bu məsələyə həsr olunmuş daha bir forum işinə başlayacaq. Layihənin reallaşması üçün çoxdandır ki, Qazaxıstan və Türkmənistanla danışıqlar aparılır. Aydın məsələdir ki, bu variantda da ən mühüm ölkələrdən biri yenə də Azərbaycan olacaq...

Deyilənləri belə ümumiləşdirmək olar ki, ipək yolu ideyası artıq futuroloji konsepsiya deyil, o, dünyanın aparıcı dövlətlərinin təmsilçilərinin iştirak etdiyi böyük siyasi forumlarda müzakirə edilir.

Ermənistanın belə layihələrdə hipotetik iştirakına gəldikdə, birincisi, onun hətta tarixi ipək yoluna belə heç bir dəxli yoxdur. İkincisi, nə qədər ki, Azərbaycan ərazilərinin işğalına son qoyulmayacaq, İrəvanın bu cür layihələrə qoşulması problemli, daha dəqiqisə, qeyri-mümkün olacaqdır.

Üçüncüsü, bu ölkənin daha bir problemi də var - onun iqtisadi siyasətini də N.Paşinyan müəyyən edir. Nə demək istəyirik?

Dünyadakı yeni siyasi trendlər göstərir ki, insanlar hər yerdə "sırf siyasətçilər"ə, partiya funksionerlərinə-partokratlara şübhəylə yanaşır və səslərini daha kreativ insanlara verməyə çalışırlar.

N.Paşinyanın, ruslar demiş, stixiyası mitinqlərdir, iqtisadiyyat, onun makro və mikro problemləri deyil. Daha yaxşı olardı ki, o, simvolik, təmsilçi post olan prezident postunu tutsun və baş nazir vəzifəsini daha peşəkar insanlara həvalə etsin - bu, daha məntiqli və effektiv olardı.

Amma bəla burasındadır ki, adi insan məntiqi ermənilərə yaddır, əks təqdirdə onlar çoxdan anlayardılar ki, ölkələrinin iflic olmuş, geri iqtisadiyyatını dirçəltmək üçün ilk növbədə hansı addımları atmaq lazımdı?..

# Venesuelada çevrilişə cəhdə görə dünya ikiyə haçalandı

## Sərdar Cəlaloğlu: "Orada diktaturaya qarşı mübarizə aparılmır"

**Venesuelada prezident Nikolas Maduro əleyhinə aylardır davam edən etiraz aksiyalarının yeni dalğası başlayıb.**



"Yeni Müsavat" xəbər verir ki, müxalifət lideri Xuan Quaido Maduronun devrilməsinə hazırlanmış "Azadlıq" əməliyyatının finalının başladığını elan edib.

Quaido twitter səhifəsində məlumat yayıb ki, Venesuela xalqının talan edilməsinin sonu çatıb:

"Mən "Azadlıq" əməliyyatının final fazasının nə anlama gəldiyini başa salmaq üçün bizim silahlı qüvvələrimizin əsas birləşmələri ilə görüşürəm".

O, hazırda Venesuela ordusunun əsas birləşmələri ilə görüşdüyünü bildirib. Quaido ordunun doğru qərar qəbul etdiyini deyib.

Quaido videomüraciət də yayıb və Venesuela xalqını hərbçilərlə birgə üsyana qalxmağa səsləyib.

Quaidonun hazırda paytaxt Karakasda yerləşən La Karlota aviabazasında olması haqqında məlumat yayılıb.

Venesuelanın informasiya naziri Xorxe Rodriqos isə dövlət çevrilişinə cəhd göstərildiyini təsdiqləyib. O, Quaido tərəfdarlarını satqın adlandırıb.

ABŞ prezidenti Donald Tramp isə Kubaya Venesuela hakimiyyətini dəstəklədiyinə görə ən yüksək səviyyədə sanksiyalar tətbiq edəcəyini bildirib.

Maduro Kubaya qaçmağa cəhd edib, amma Moskva onu bu addımı atmaqdan yayındırıb. Bunu CNN televiziyasına müsahibəsində ABŞ dövlət katibi Mayk Pompeo söyləyib.

O bildirib ki, Rusiyanın bu ölkənin arsenalında olan zenit-raket kompleksləri ABŞ-ın Maduroya qarşı hərbi əməliyyat keçirməsinə mane olmayacaq.

"Ağ Ev bu cür bəyanatlarla Venesueladakı dövlət çevrilişinin uğursuzluğunu gizlətməyə çalışır".

Venesuelanın xarici işlər naziri Xorxe Arreaza Pompeonun Maduronun ölkədən qaçmağa cəhd göstərməsi ilə bağlı bəyanatına münasibət bildirərkən deyib.

Nazir sözügedən bəyanatların yalan olduğunu açıqlayıb və ABŞ-ı diplomatiya barədə xatırlamağa dəvət edib.

"Laqeydlik, ağılsızlıq, yalan və manipulyasiya hansı səviyyəyə qədər gedib çıxa bilər?!" - Maduro onun ölkədən qaçması bəyanatına cavab olaraq deyib.

"Röyters" isə yazır ki, ABŞ-da məşhur "Black whater" dəstəsinin başçısı Trampa maliyyə ayrılması üçün müraciət edib. Mülki hərbçilər bununla Venesueladakı proseslərə müdaxilə etməyə hazır olduqlarını bildiriblər.

Boliviya prezidenti Evo Morales dəstək nümayiş etdirərək vurğulayıb ki, Tramp Venesuelada dövlət çevrilişi məsələsində uğursuzluğa düçar oldu.

"Təəssüf ki, bəzi hökumətlər səhv edib, Trampı dəstəkləyirlər", - Morales bildirib. ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton deyib ki, Rusiya Venesuelanın işlərinə müdaxilə etməməlidir.

"Biz ümid edirik ki, ruslar Venesuelada baş verən hadisələrə müdaxilə etməyəcək. Venesuelada artıq dönüş nöqtəsi çatıb. Biz bu ölkədə baş verənləri xüsusi diqqətlə izləyirik", - o bildirib.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan twitter səhifəsində Maduroya dəstək mesajı yazıb: "Venesuelaya postmodern müstəmləkə qubernatoru təyin etmək istəyənlər (ABŞ nəzərdə tutulur - E.S) bilməlidir ki, bu ölkənin idarəetməsi yalnız demokratik seçkilərlə müəyyən edilə bilər.

"Venesueladakı çevriliş cəhdini qınayırıq. Bütün dünya Venesuelada xalqın demokratik seçiminə hörmət etməlidir", - deyə Ərdoğan qeyd edib.

Hətta əfsanəvi futbolçu Dieqo Maradona da Maduroya dəstəyini nümayiş etdirib: "Güclü ol, Venesuela, yeni bir çevriliş cəhdini dəf etmək üçün heç bir zaman olmadığı qədər bərabərik", - deyə Maradona qeyd edib.

Pompeo isə mayın 1-də növbəti açıqlamasında Maduroya "Təyyarəni işə salın" deyərək ölkəsini tərk etməyi xəbərdarlıq edib.

Kolumbiya prezidenti İvan Duque twitter hesabında yazıb ki, Venesuela xalqı tarixin düzgün tərəfində yer almalı, diktatorluğu rədd etməlidir.

Lakin Quaydonu rəsmən tanıyan İspaniya çevrilişin əleyhinə olduğunu bildirib.

**Azərbaycan Demokrat Partiyası (ADP) sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirdi ki, Venesuelada diktaturaya qarşı mübarizə aparılmır:**

"Bu ölkədə böyük neft ehtiyatları var və Amerika onun uğrunda mübarizə aparır. Venesuelada demokratiyaya dəstəkdən söhbət gedə bilməz.

Amerikaya zidd rejimə imkan vermək istəmirlər. Çünki Maduro anti-amerikan siyasət aparır, ABŞ-la rəqabətdə olan ölkələrlə yaxınlıq edir.

Amma çevrilişə ilkin cəhdlər uğursuz olubsa, Maduro hakimiyyətdə qalmağı bacaracaq".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Yeniyetmə və gənclərə dinlərlə bağlı biliklərin verilməsi yeni ideya deyil"

## Gündüz İsmayılov: "Bir qrup şəxs təkidlə elə görüntü yaratmağa çalışır ki, guya ümumtəhsil müəssisələri mədrəsəyə çevriləcək, məktəblilər dindarlaşdırılacaq"

**Orta və ali məktəblərdə din tədrisi məsələsinin yenidən gündəmə gəlməsi ölkədə ciddi müzakirələrə səbəb oldu. Din təhsili necə olacaq, kimlər tədris edəcək bu fənləri və sair kimi suallar ortada gəzir. Eyni zamanda dini ziyarətlərdə tənzimləmələr, yeni dini qanunun gündəmə gəlməsi kimi sual yaradan mövzular gündəmin əsas mövzularını təşkil edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovla din sahəsində son günlər müzakirə olunan məsələlərlə bağlı söhbət etdik.**

***- Gündüz müəllim, dini təhsillə bağlı açıqlama ajiotaja səbəb oldu. Sizcə, bu narahatlığın səbəbi nə ilə bağlıdır? İnsanlar dünyəviliyin zəifləyəcəyindən narahatdır, yoxsa başqa nüanslar da var?***





- Məncə, bu ajiotajı təkcə narahatlıq kimi qəbul etmək doğru deyil. Çünki verilən reaksiyaların heç də hamısı mənə səmimi təsir bağışlamır. Dəfələrlə məsələ barədə ətraflı izah və açıqlamalar verməyimizə baxmayaraq, bəzi şəxslər bilərəkdən və ya bilməyərəkdən verilmiş açıqlamanı israrla fərqli rakursdan təqdim etməyə çalışırlar. Məsələn, deyirik ki, orta məktəblərdə din, şəriət tədris olunmayacaq. Amma bir qrup şəxs təkidlə elə görüntü yaratmağa çalışır ki, guya ümumtəhsil müəssisələri mədrəsəyə çevriləcək, məktəblilər dindarlaşdırılacaq. Mənə elə gəlir ki, bu cür mövqe nümayiş etdirənlərin bir qismi səmimi deyil, hətta qərəzlidir. Ancaq bu məsələdə dünyəviliyin zəifləyəcəyindən narahatlıq keçirənlərin olması da mümkündür. Şəxsən mən səmimi şəkildə bu cür mövqe bildirənlərin narahatlığını başa düşürəm. Lakin qəti və əminliklə bildirmək istəyirəm ki, orta məktəblərdə, ümumiyyətlə, bütün təhsil ocaqlarında dinlə bağlı biliklərin verilməsi heç bir halda dünyəviliyin zəifləməsinə şərait yaratmayacaq. Belə bir hal olmayacaq və ola da bilməz. Dünyəvilikdən, dinin dövlətdən ayrı olması prinsipindən zərrə qədər güzəştə getmək olmaz. Bunun əksini düşünmək, bu istiqamətdə çalışmaq dövlətimizə və dövlətçiliyimizə, o cümlədən milli maraqlarımıza qarşı çıxmaqdır və cinayətdir.

***- Açıqlamada bildirmişsiniz ki, ümumi bilgiləndirmə dərsləri olacaq. Bu dərslərin forması, ümumi çərçivələri məlumdurmu? Yəni dinlə bağlı hara qədər bilgi veriləcək, eləcə də hansı dinlər, dini qruplar haqda məlumatlandırma olacaq? Dərslər məcburi olacaq, yoxsa azad seçimlə?***

- Yeniyetmə və gənclərə dinlərlə bağlı biliklərin verilməsi yeni ideya deyil. Azərbaycan müstəqilliyini bərpa etdiyi dövrdən indiyədək bu məsələ həmişə aktual olub. Artıq neçə illərdir ki, şagirdlərə dinlə bağlı biliklər verilir. Bu biliklər daha çox "Həyat bilgisi" və qismən tarix fənni vasitəsilə öyrədilir. Başqa sözlə, "Həyat bilgisi" fənninin tədrisində məqsədlərdən biri də dinlə bağlı bilikləri verməkdir. Hesab edirik ki, ölkədə dinlə bağlı mövcud reallıqlar nəzərə alınmaqla "Həyat bilgisi" fənnində dini biliklər mərhələ-mərhələ bir qədər genişləndirilməli və təkmilləşdirilməlidir. Hazırda bu fənlə bağlı köklü bir dəyişiklik yoxdur. Sadəcə, dərsliyin proqramında bəzi yeniliklər nəzərdə tutulur. O ki qaldı dinlərlə bağlı hansı məlumatların verilməsinə, məncə, gənclərə bütün dinlər, onların əsasları, mahiyyəti, məqsədi, müqəddəs kitablar və onların qayəsi haqqında minimum biliklər verilməlidir. Çünki bu bilikləri biz verməsək, dövlət verməsə, başqaları verəcək. Bu isə bizim üçün ciddi problemlər yaradacaq. Bir daha qeyd edirəm ki, zatən, bu bilgilər müstəqilliyimizi bərpa etdikdən sonra şagirdlərə çatdırılırdı.

***- Bunu etmək üçün kadr varmı? Onsuz da təhsil sahəsində ciddi problemlər var. Ölkədəki məktəblərdə bir çox ixtisaslarda qeyri-ixtisas müəllimləri dərs deyir, dini dərsləri kimlər deyəcək? Bu qədər kadr varmı?***

- "Həyat bilgisi" fənnini indiyənə kimi kimlər tədris edirdisə, bundan sonra da həmin şəxslər tədris edəcək. Ümumiyyətlə, hazırda dini biliklərlə bağlı ayrıca bir fənn tədris edilmədiyi üçün sizin nəzərdə tutduğunuz formada kadr məsələsi aktual deyil. Onu da deyim ki, Azərbaycan İlahiyyat İnstitutunda hazırda 2 ixtisas üzrə kadr hazırlığı gedir: islamşünas və dinşünas.

***- Yeri gəlmişkən, ötən gün komitə sədri Mübariz Qurbanlı və ötən həftə isə MM deputatı Siyavuş Novruzov bildirdi ki, dini ziyarət mövzusu, xüsusən də İran və İraqdakı ziyarətgahlara səfərlərin təşkili ilə bağlı yeni qaydalar hazırlanacaq. Bu sahədə çatışmazlıqların olması məlumdur, amma bunları aradan qaldırmağı necə etməyi düşünürsünüz? Yəni bu nizamlanma hansı formada olacaq, ümumi bilgi verə bilərsiniz? Azərbaycandan İrana viza tələb olunmur, İraq viza tələb olunsa da, ilboyu davam edən bu ziyarətləri hökumət orqanları hansı formada nizamlayacaq?***

- Həcc ziyarəti istisna olmaqla, xarici ölkələrdəki ziyarətgahlara səfərlərin təşkili ilə bağlı həqiqətən də çatışmazlıqlar var. Bu məsələlərin qanunla tənzimlənməsinə ciddi ehtiyac duyulur. Açığı, bu, təkcə din məsələsi deyil, milli, ictimai, ideoloji təhlükəsizliyimiz baxımından xüsusi əhəmiyyət kəsb edən mövzudur. İndiyədək müəyyən təkliflər irəli sürülüb, amma son nəticəni zaman göstərəcək.

***- Yeri gəlmişkən, ötən il Siyavuş Novruzov bildirdi ki, yeni "Dini Etiqad azadlığı və dini qurumlar haqqında" Qanun hazırlanır. Bu qanun layihəsi ilə tanışsınızmı? Layihə bizdə olmasa da, adı maraq doğurur. Hazırda qüvvədə olan qanundan fərqli olaraq yeni qanunda "dini qurumlar" ifadəsi var. Bu nəyə işarədir, dini qurumların statusu və fəaliyyət istiqamətlərində dəyişiklik olacaq? Komitənin səlahiyyətləri artırıla bilər?***

- Layihə barədə məlumatlı olmadığım üçün nəsə deyə bilmirəm. Amma məncə, dini etiqad azadlığı sahəsində qanunvericilik bazasının təkminləşdirilməsinə ehtiyac var. Təsəvvür edin ki, bu qanun 1992-ci ildə qəbul edilib. O dövrdən indiyədək din sahəsində ciddi dəyişikliklər baş verib. Hazırda bu sahədə üzləşdiyimiz məsələlərin əksəriyyəti o dövrdə heç yox idi. Düzdür, indiyədək "Dini etiqad azadlığı haqqında" Qanuna əlavə və dəyişikliklər edilib. Amma qanunun yenidən işlənməsi məqsədəuyğun olardı.

***- Bir neçə il əvvəl DQİDK Azərbaycanda "xurafat və radikalizmə qarşı" kampaniya başlatdı və son illərdə çoxlu sayda tədbirlər keçirilib. Necədir indi vəziyyət? Dini radikalizm və xurafata qarşı mübarizə hansı ölçüdə nəticə verdi?***

## "Dini etiqad azadlığı sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə ehtiyac var"

- Ölkədə dini durum sabitdir. Dini radikalizmə, xurafata qarşı aparılan kompleks tədbirlər öz nəticəsini verir. Mənə elə gəlir ki, dini durumu yaxından izləyən istənilən şəxs bu fikrimlə razılaşar. Məncə, maarifçilik baxımından ən böyük uğurlarımızdan biri odur ki, cəmiyyət, hətta sadə insanlarımız belə din sahəsinə artıq həssas yanaşırlar. Başa düşürlər ki, dinlə yanaşı, dini kimdən öyrənmək məsələsi də önəmlidir. Bu baxımdan insanlarımızın böyük əksəriyyəti normal dini biliklərlə zərərli dini bilikləri artıq bir-birindən ayırd edə bilir. Dini radikalizm və xurafatla mübarizədə cəmiyyətin müqavimətini formalaşdırmaq üçün bu, olduqca vacib amildir.

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistan işğalçılıq niyyətindən əl çəkməyəcəyini son təxribatı ilə bir daha nümayiş etdirdi. Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) son məlumatına görə, aprelin 29-30-da Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədindəki sərhəd döyüş məntəqələri günün müxtəlif vaxtlarında Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən bir neçə istiqamətdən iriçaplı silahlardan dəfələrlə intensiv atəşə tutulub.**





# Türkiyə-Azərbaycan birgə təlimlərinə qarşı düşmən təxribatı

## Ermənistanın Qarabağ danışıqlarını pozmağa yönəlik növbəti addımı nəyə hesablanmışdı?

## Hərbi ekspertdən ilginc açıqlama: "Düşmən bizim sərhədçilərin ayıq-sayıqlığını yoxlamaq istəyirdi və cavabını aldı..."

Təbii ki, Azərbaycan sərhədçiləri düşmənin təxribatına ona layiq olan cavabı veriblər. Bölmələrimizin atəşə tutulduğu Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri istiqamətində cavab atəşi açılıb. Ermənistan Müdafiə Nazirliyi isə bundan sonra ənənəvi hay-küyünə başladı. Rəsmi məlumata görə, 32 yaşlı hərbçi (onun rütbəsi açıqlanmır - red.) Arqişti Sepxanyan başından güllə yarası alıb. "Yeni Müsavat" erməni mediasına istinadən xəbər verir ki, mayın 1-də erməni hərbçi əməliyyat olunub. Erməni tərəfin məlumatına görə, hərbçi Tavuş vilayətinin Bağanis kəndində yaralanıb. Qeyd edək ki, hadisə Qazax rayonu ilə həmsərhəd bölgədə baş verib. Qazax rayonunun 7 kəndini işğal edən Ermənistan tərəf həyasızcasına Azərbaycana qarşı ərazi iddialarını davam etdirir.

Baş vermiş insidentlə bağlı digər maraqlı məlumat yayılıb. Belə ki, Ermənistanın bəzi KİV-ləri atışma nəticəsində xeyli sayda əsgər və zabitin yaralandığını yazıb. Yaralılar arasında ölənlərin olduğu da deyilir (unikal.org).

Ermənistanın müdafiə naziri David Tonoyan bir müddət öncə Azərbaycanla sərhədə gələrək mövqelərimizə tərəf boylanmış, hərbçilərə tapşırıqlarını vermişdi. O zaman bəzi müşahidəçilər düşmənin hər an təxribat törədə biləcəyini deyirdilər. Özü də erməni nazir intensiv danışıqların davam etdiyi bir vaxtda hərbi ritorikaya güc vermiş, hətta Azərbaycanı yeni əraziləri işğal etməklə hədələmişdi. Ermənistanın Qarabağ istiqamətindən deyil, məhz iki dövlətin sərhədindən hərəkətə keçib təxribata əl atması isə sözsüz ki, hesablanmış addım idi. Özü də bu hadisə Rusiyanın baş naziri Dmitri Medvedyevin İrəvanda olduğu zaman baş verdi. Görünür, bununla Paşinyan hökuməti "Rusiyadan əlavə təhlükəsizlik tədbirləri" ilə bağlı təminat almaq istəyib. Vaxtilə Serj Sərkisyan da helikopterlərdən birini Azərbaycanın mövqelərinə doğru uçurtmuşdu. O da istisna deyil ki, daxildə heç bir uğura nail olmayan yeni hökumət ənənəvi "xarici düşmən" amilinə diqqət yönəltməklə öz rəqiblərini neytrallaşdırmaq istəyir.

*****

İndiki həssas dönəmdə qardaş Türkiyədən Azərbaycana növbəti dəstək gəlib.

"Təbii ki, dost və qardaş Azərbaycanın razılıq verdiyi həll yolunu Türkiyənin dəstəkləməsi mümkün deyil. ATƏT-in Minsk Qrupunun üzvü olan Türkiyə digər Minsk Qrupu ölkələri kimi həmsədrlər tərəfindən mütəmadi olaraq həll prosesi ilə bağlı məlumatlandırılır".

Türkiyə Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən ONA-ya verilən açıqlamada belə deyilir. Bu bəyanatın məhz Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinin keçirildiyi zaman səslənməsi də mühüm əhəmiyyətə malikdir.

Belə ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-də "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərinin və qarşılıqlı anlaşmasının yüksək səviyyədə saxlanılmasıdır.

Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb edilib. Təlim mayın 3-dək davam edəcək.

İstanbulda səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 1-də türkiyəli həmkarı Hulusi Akarla görüşüb ki, bu da önəmli hadisədir.

****

Keçirilən təlimlər və Türkiyə-Azərbaycan hərbi müttəfiqliyi Ermənistanda və Rusiyanın bəzi dairələrində narahatlıqla qarşılanıb. Erməni ekspertlər hesab edirlər ki, ad açıqlanmasa da, təlimlərin hədəfi Ermənistandır. Erməni şərhçi Aram Sarkisyan bu təlimlərin hədəfinin nəzəri baxımdan Ermənistan olduğunu və Dağlıq Qarabağ məsələsində hərbi təzyiqin edildiyini iddia edib. O, məsələ ilə bağlı Rusiyanın erməniyönümlü ekspertlərinə müraciət edib.

**Moskvanın MDB İnstitunun direktor müavini Vladimir Yevseyev iddia edib ki, bu təlimlər təkcə Ermənistan yox, Rusiya maraqlarına qarşı da yönəlib.** "Ermənistan-Rusiya münasibətləri Ermənistanla hərbi münaqişəyə icazə vermir. Bunu Türkiyə də anlayır. Əgər Ermənistana hücum olacaqsa, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müdaxilə edəcək", - deyə Yevseyev bildirib.

**Politoloq, sabiq dövlət müşaviri Qabil Hüseynli Publika.az-a deyib ki, bölgədə təkcə hərbi təlimlər keçirən Türkiyə-Azərbaycan deyil, Rusiya-Ermənistan birliyi də var:** "Məyusluq içində olan Ermənistan və Rusiya ictimaiyyətinə xatırlada bilərik ki, artıq neçənci dəfədir, Ermənistan ərazisində Rusiya qoşunları ilə birgə hərbi təlimlər keçirilib. Bu təlimlərdə Hərbi Aviasiya iştirak edir, Tank Qoşunları və Quru Qoşunları qatılır. Özü də təlimlər ildə, ən azı, iki dəfə keçirilir və çox böyük coğrafiyanı əhatə edir. Üstəlik, bu azmış kimi, Ermənistanın ərazisində Rusiyanın iki böyük hərbi bazası var. Bu bazalarda olan qoşun kontingenti yeri gələndə ermənilərlə birlikdə hərbi təlimlərə cəlb olunurlar. Ermənistan Rusiya ilə birlikdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı - "Rus NATO-su"nun üzvüdür. Yəni bu o deməkdir ki, bu dövlətlər KTMT-nin də təlimlərində birgə iştirak edirlər. Bütün bunlar göstərir ki, Rusiya-Ermənistan qoşunları bir-birinə daha çox inteqrasiya edib. Bura Rusiyanın 3 dəfə çox böyük məbləğdə Ermənistana silah krediti verdiyini, Boris Yeltsinin dövründə 1 milyarddan çox dəyəri olan silah-sursatın Ermənistan ordusuna hədiyyə edildiyini, həmçinin Gürcüstandan çıxarılan Rusiya qoşunlarının bütün hərbi təchizatının hamısının Ermənistana göndərildiyini əlavə edə bilərik".

Q.Hüseynli onu da vurğulayıb ki, əgər Ermənistanın işğalçılıq faktoru olmasaydı, bölgə daha sabit, sülh içində olardı".

**Ehtiyatda olan zabit, polkovnik Şair Ramaldanov isə "Yeni Müsavat"a dedi ki, Türkiyə və Azərbaycanın birgə hərbi təlimləri planauyğun şəkildə, mütəmadi qaydada həyata keçirilir:** "Bundan əvvəl Türkiyə hərbçiləri Azərbaycana gəlmişdilər və hərbi mütəxəssislərimiz C-300-lə bağlı onlara dərs keçdilər. Yəni bu təlimlər heç bir başqa ölkəyə qarşı yönəlməyib".

**Ş.Ramaldanov erməni tərəfinin narahatlığını təbii saydı:** "Birincisi, Azərbaycan heç vaxt gizlətməyib ki, günün birində antiterror əməliyyatı keçirə, yaxud torpaqlarını azad etmək üçün hərbi əməliyyatlara başlaya bilər. Bu barədə dəfələrlə xəbərdarlıqlar da edilib. O ki qaldı Azərbaycan və Türkiyə birgə hərbi təlimlərinə, bunun Qarabağdakı antiterror əməliyyatına aidiyyəti yoxdur, bu, planda olan təlimlərdir. Azərbaycanın müştərək və ya fərdi təlimlərindən Ermənistanın narahat olması təbiidir. Düşmən bilir ki, Azərbaycan gündən-günə hərbi hazırlığını yüksəldir və Türkiyə kimi qüdrətli orduya malik dövlətlə işbirliyi Azərbaycanın ilk növbədə imkanlarını göstərir. Digər tərəfdən, hələlik Türkiyənin Qarabağdakı antiterror əməliyyatlarına qatılıb-qatılmaması haqda heç bir söz-söhbət yoxdur".

**Polkovnik Ermənistanın son təxribatlarının təsadüfi olmadığını bildirdi:** "Erməni tərəfi həmişə təxribata əl atıb və cavabını alıb. Ancaq son zamanlar Ermənistan rəhbərliyinin özü də təxribatçı çıxışlar edir və onun da əks-sədasını cəbhə xəttində, yaxud təmas xəttində müşahidə edirik. İstisna deyil ki, düşmən bizim sərhədçilərin ayıq-sayıqlığını yoxlamaq istəyirdi və cavabını da aldı".

Hər halda, İrəvan nə yolla olursa-olsun başda Rusiya olmaqla, KTMT-ni Qarabağ savaşında tərəfə çevirməyə çalışır. Türkiyə-Azərbaycan hərbi müttəfiqliyi isə balansın yaranması üçün önəmli məsələdir və düşməni təşvişə salan da budur.

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

# Azərbaycanda 1 May niyə keçirilmir-mövqelər

**Mayın 1-i Beynəlxalq Əmək Günü qeyd olunur. Dünyanın bir çox ölkələri bu bayramı qeyd edir. Türkiyədə, Fransada bayram yürüşləri toqquşmalara, döyüş meydanına belə çevrilir. Yəni bu ənənə, bayram kapitalizmin inkişaf etdiyi ölkələrdə xüsusi qeyd edilir.**

Keçmiş sosialist ölkəsi olan Azərbaycanda isə müstəqillikdən sonra "mayovka" keçirilmir. Sovet vaxtı xalq bu günü bayram edirdi.

1 May tarixinin manifestasiyalarla beynəlxalq zəhmətkeşlər bayramı kimi anılması qərarı ilk dəfə II İnternasionalın 1889-cu ilin iyulunda keçirilən Paris Konqresində verilib.

Buna qədər isə 1886-cı ilin 1 mayında artıq Çikaqoda həmkarlar ittifaqları 8 saatlıq iş günü tələbi ilə nümayişlər təşkil etmişdi.







**Pənah Hüseyn:** "Bu məsələni iki dəfə parlamentdə qaldırmışam"
**Həmid Herisçi:** "Mən olsaydım, 1 Mayı..."
**Araz Əlizadə:** "Bu bayramın kommunistlərə aidiyyəti yoxdur"

**Azərbaycan Kommunist Partiyasının I katibi Telman Nurullayev "Yeni Müsavat"a bildirdi ki, ölkə rəhbərliyinə və Milli Məclisə 1 Mayın qeyri-iş günü və bayram kimi rəsmiləşdirilməsi ilə bağlı müraciətlər ediblər.**

"Ancaq cavab verilməyib. Bu bayramı Xalq Cəbhəsi hakimiyyətdə olanda ləğv etdi. O zaman 1 Mayın qeyri-iş günü olması ləğv edildi. 1 May zəhmətkeşlərin günüdür. Maddi nemətləri fəhlə sinfi yaradır. Fəhləyə gərək qayğı göstərəsən ki, cəmiyyəti yaşatsın. Ona bu cür qiymət verməək öz vətəninə, işçi sinfinə hörmətsizlikdir. Heç olmasa əmək bayramı kimi qeyd olunsun, biz razıyıq. Çünki bu fəhlə çəkici, kəndli orağından qidalanırıq. Adam su içdiyi quyuya tüpürməz. Axı bu ölkədə nefti fəhlə çıxarır, ona qiymət vermək lazımdır", - deyə AKP rəsmisi vurğuladı.

**T.Nurullayev qeyd etdi ki, Azərbaycanda kapitalizm inkişaf etməkdədir:** " Qərb sosialist münasibətləri boğur. Bizimkilər Avropa Şurasına görə Qərb dairələrinə qulaq asırlar. Biz əvvəl Moskvaya qulaq asırdıq, indi onlar Qərbi eşidirlər".

**Onun sözlərinə görə, mayın 1-də Bakıda fəhlə heykəlinin qarşısında toplaşıblar:** "Hər il ora toplaşırıq. Bu il də 5-6 nəfər gəlmişdi. Əziz bayramlarımızdan biridir. Biz istəyirik ki, 1 May əmək bayramı kimi dövlət səviyyəsində keçirilsin".

**Azərbaycan Sosial Demokrat Partiyası (ASDP) sədri, deputat Araz Əlizadə 1 Mayın keçirilməməsinin Xalq Cəbhəsi iqtidarının qərarı olduğunu xatırlatdı. Onun sözlərinə görə, 9 Mayın ləğvi də təklif edilirdi:** "Sağ olsun ki, Sabir Rüstəmxanlının dəlilləri əsasında 8 Mart bayramı saxlandı, onu da ləğv edəcəkdilər.

Görünür ki, zəhmətkeşləri zəruri saymayıblar. Mən onlara izah edirdim ki, bu bayramın kommunistlərə aidiyyəti yoxdur, insanların, fəhlələrin, əməkçilərin haqlarının qorunması günüdür. Hətta bir ara biz mitinq keçirmək istəyirdik, amma sağçılar bunu kommunizmi qaytarmaq istəyimiz kimi təqdim edirdilər. Lenin deyirdi ki, hər bir aşpaz qadın dövləti idarə etməyi öyrənməlidir. Amma onlar bunu belə başa düşdülər ki, hər aşpaz qadın dövlət idarə etməlidir. Öyrənməklə etmək arasında fərq qoymadılar".

**Yazıçı Həmid Herisçinin sözlərinə görə, Azərbaycanın sosialist keçmişi olub:** "Azərbaycan sağının nailiyyəti o idi ki, sərhədlər yaradıldı. Azərbaycan sağı millətini sevirdi, amma sosial öhdəliklərini bölüşmürdü. 1 May yaxşı ənənə idi.

Məsələn, 300 spartalı varıydı, bu əfsanə müasirləşmişdi, spartakiada keçirilirdi. Bir növ bu bayram zəhmətkeşlərin performansına çevrilmişdi. Amma Elçibəy iqtidarı dövründə 1 May bayram kimi ləğv edildi. Hətta Pənah Hüseynin qərarı olmuşdu. Axı niyə ləğv etdiniz?

O vaxt Alpaslan Türkeş Bakıya gəlməliydi, Azadlıq meydanında qarşılanmalıydı. Türkiyə millətçiləri də 1 Maya nifrət edirdilər. Pənah bəy Türkeşə 1 Mayı hədiyyə etdi, onun gəlişi ərəfəsində bizdə 1 May ləğv olundu. Mən olsaydım, 1 Mayı onun ayaqları altına atmazdım. Mən millətimi solçu kimi sevirəm. Mən hesab edirəm ki, solçular Azərbaycan üçün daha ciddi iş görüblər, nəinki sağçılar. Sağçılar Turanı sevirlər, Turan insanını sevmirlər, sosial öhdəliklərini qəbul etmirlər. Məsələn, Təbrizdə sol ənənəsi çox güclüdür. Bizdə Təbrizi sağçı şəhər kimi təqdim edirlər. Amma Pişəvəri, Səttarxan solçu olub. 1 May solun bayramıdır. Bu gün Fransaya baxın, Parisi dərviş yox, solçular dağıdırlar".

**Elçibəy iqtidarında baş nazir olmuş Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn isə qəzetimizə bildirdi ki, H.Herisçi tarixi qarışdırır. Onun sözlərinə görə, həmin dövrdə Milli Məclisdə bayram günləri ilə bağlı qanun qəbul olunmuşdu:** "İş və qeyri-iş günləri təsdiqlənirdi. Bu siyahıda 1 May iş günü kimi təsdiqləndi. Mən həmin vaxt Milli Məclis üzvü deyildim və belə qərar vermək səlahiyyətim yox idi. Türkeş isə 1992-ci ildə gəlib".

P.Hüseyn bildirdi ki, 2000-2005-ci illərdə deputat olduğu dönəmdə Milli Məclisdə iki dəfə 1 Mayın qeyri-iş günü olması, əmək və həmrəylik günü kimi qeyd edilməsi barədə təkliflər irəli sürüb.

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# İcra başçılarının xanım müavinləri: onlar kimlərdir?

## Qadın müavinlərin əksəriyyəti uzun karyera yolu keçib



Fidumə Hüseynova



Gülarə Verdiyeva



Gülnaz İsrafilova



Jalə Abdıyeva

**Son iki həftədə Səbayel rayon icra başçısının xanım müavini Xalidə Bayramovanın adı məlum olayla bağlı mətbuatda tez-tez çəkildi. Bu, həm də bir məsələni gündəmə gətirdi: maraqlıdır, ölkədə nə qədər xanım icra başçısının müavini postunu tutub və onların karyera yolu necədir? Bununla bağlı araşdırma aparıb, bəzi məlumatlar topladıq.**

İlk olaraq Bakı Şəhər İcra Hakimiyyətindən başlayaq. Burada icra başçısının müavinlərindən biri Fidumə Hüseynovadır. O, ali təhsilini M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda alıb. Təhsil aldığı illərdə institut komsomol komitəsi katibinin müavini, 1984-cü ilə qədər komitənin katibi vəzifələrində fəaliyyət göstərib, 1984-1989-cu illərdə isə Bakı şəhəri, Nəsimi Rayon Komsomol Komitəsinin katibi olub. 2001-2003-cü illərdə Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini, 2003-2005-ci illərdə Bakı şəhəri, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb.

Nəsimi rayon icra başçısının 1-ci müavini də xanımdır. Belə ki, 152 saylı orta məktəbin keçmiş direktoru Gülarə Verdiyeva 2017-ci ildən Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsindədir. Gülarə Verdiyeva həm də birinci dərəcəli dövlət qulluqçusudur. Onun karyerası pedaqoqluqla bağlıdır. Belə ki, 1993-1995-ci illərdə Gəncə şəhər 44 saylı orta məktəbdə laborant vəzifəsində, 1995-1998-ci illərdə Gəncə şəhər 44 saylı orta məktəbdə ibtidai sinif müəllimi, 1998-1999-cu illərdə Bakı şəhəri, Yasamal rayonu M.Müşfiq adına 18 saylı orta məktəbdə günü uzadılmış qrup rəhbəri, 1999-2007-ci illərdə Bakı şəhəri, Yasamal rayonu 18 saylı orta məktəbdə ibtidai sinif müəllimi, 2007-ci ildə Bakı şəhəri, Nəsimi rayonu 9 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini, 2007-2009-cu illərdə Bakı şəhəri A.Hüseynzadə adına 20 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini, 2009-2010-cu illərdə Bakı şəhəri, Nəsimi rayonu 28 saylı orta məktəbdə və 2010-cu ildə Bakı şəhəri, Nəsimi rayonu 152 saylı tam orta məktəbdə direktor vəzifəsində çalışıb. 2013-cü ilin noyabr ayından Nəsimi Rayon İcra Hakimiyyətində humanitar məsələlər üzrə müavin vəzifəsinə təyin edilib. 2017-ci ildən isə birinci müavindir.

Qeyd edək ki, G.Verdiyeva eyni zamanda 2010-cu ildə deputatlığa namizədliyini vermiş, lakin seçilməmişdi.

Xətai rayon icra başçısının müavinlərindən biri Jalə Abdıyeva Zülfiqar qızıdır. Onun karyerası həkimlikdən keçib.2005-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi fakültəsini bitirib. 2006-2011-ci ildə 3 saylı Uşaq Dəri-Zöhrəvi Dispanserində dəri-zöhrəvi həkimi vəzifəsində çalışıb. 2011-2013-cü illərdə Mərkəzi Neftçilər Xəstəxanasında Xəstəxana Xidmətləri şöbəsinin müdiri, sonra şöbə rəisinin müavini vəzifəsində çalışıb. 2013-cü ildən icra başçısının müavinidir.

Yasamal rayon icra başçısının xanım müavini Təravət Muradovadır. Onun haqqında geniş məlumat mövcud deyil.

Nizami rayon icra başçısının müavinlərindən biri Gülnaz Şakir qızı İsrafilovadır. O, 1985-ci ildə Bakı Dövlət Universitetini filoloq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. Əmək fəaliyyətinə 1975-ci ildə Şəki İpək Birliyi toxucu istehsalatında ərişçi kimi başlayıb, 1985-1990-cı illərdə Bakı şəhəri Nizami rayonu 10 nömrəli orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi, 1990-1993-cü illərdə Nizami Rayon Təhsil Şöbəsində inspektor, 1993-2006-cı illərdə isə Nizami rayonu 214 nömrəli məktəbin direktoru vəzifəsində işləyib. 2006-cı ildə Nizami Rayon Təhsil Şöbəsinin müdiri, 2006-2009-cu illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyəti başçısı aparatında Təhsil, səhiyyə və mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışıb. 2009-cu ildən Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində işləyir.

Fərəcova Rəna Möhübbət qızı Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavinlərindən biridir. O, 2011-ci ildə Azərbaycan Dillər Universitetinin bakalavriatura səviyyəsinin "Xarici dil (ingilis dili) müəllimliyi", 2013-cü ildə isə magistratura səviyyəsinin "Dilşünaslıq (ingilis dili)" ixtisaslarını fərqlənmə diplomu ilə bitirib. Əmək fəaliyyətinə 2012-ci ildə Azərbaycan Dillər Universitetinin İngilis dilinin tarixi və leksikası kafedrasında müəllim vəzifəsinə təyin olunaraq başlayıb. 2016-cı ilin sentyabr-noyabr aylarında müəllimliklə yanaşı, Azərbaycan Dillər Universitetinin Təhsil fakültəsində Tədris işləri üzrə dekan müavini vəzifəsində çalışıb. 2016-cı ilin noyabr-iyul aylarında Azərbaycan Dillər Universitetinin Tələbə qəbulu və tələbə qeydiyyatı mərkəzində direktor vəzifəsində işləyib. 2017-ci ildən Sabunçu Rayonu İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini vəzifəsinə təyin olunub.

Eləcə də bölgələrdən Mingəçevir, İsmayıllı, Ağstafa, Göyçay, Şəki, Gədəbəy, Yevlax, Şirvan, Ağcabədi, Ağsu, Astara, Beyləqan, Balakəndə də icra başçılarının müavinlərindən biri xanımdır.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

**Bu ilin mart ayında yanaraq külə çevrilən "Diqlas" Ticarət Mərkəzinin sahibkarları narazıdırlar. Sahibkarlar "Yeni Müsavat"a müraciət edərək bildiriblər ki, onların problemləri hələ də tam olaraq həll olunmayıb.**

# Sahibkarlar "Diqlas" rəhbərliyindən narazıdır

## **Ticarətçi:** "Maddi yardımın ödənilməsi üçün Rasim Məmmədovun imzası lazımdır, ancaq hələ də mənim sənədimə qol çəkməyib"
## **Rasim Məmmədov:** "Sənədlərində problem yoxdur, yaxın zamanlarda ona dövlət tərəfindən ayrılan vəsait ödəniləcək"

"Yeni Müsavat"ın reportyor qrupu olaraq bu və ya digər məsələlərlə bağlı yerində məlumat almaq üçün ticarət mərkəzinin önünə yollandıq. Müşahidə etdik ki, "Diqlas"ın qarşısında hələ də Fövqəladə Hallar Nazirliyinin yangın söndürən maşını var və nazirliyin əməkdaşları da xidmət aparırlar. Ticarət mərkəzinin ətrafına polis tərəfindən mühafizə barmaqlıqları çəkilib. Ərazidə polis xidmət apararaq, ümumi vəziyyətə nəzarət edir.









**Orada olduğumuz zaman ticarət mərkəzində divar saatları satan Fazil Yusibovla həmsöhbət olduq. F. Yusibov bildirdi ki, hələ də dövlət tərəfindən ayrılan maddi yardımı ala bilmədiyi üçün vəziyyətdən narahatdır:** "Burada divar saatları satırdım. Yanğın nəticəsində mağazam tamamilə yandı və içərisindəki maldan heç birini çıxara bilmədik. Ərizəmdə də qeyd etdim ki, mənə ümumilikdə 5-10 min manat arasında zərər dəyib. Lakin mənimlə qonşuluqda olan digər mağazaların sahiblərinə yardım edilsə də, bu günə qədər bir manat da olsun maddi yardım ala bilməmişəm. Mənə deyirlər ki, maddi yardımın ödənilməsi üçün "Diqlas"ın rəhbərlərindən olan Rasim Məmmədovun imzası lazımdır. Ancaq hələ də o, mənim sənədimə qol çəkməyib. Ona görə də pul ala bilmirəm. Vəziyyətim çox ağırdır. Yeganə qazanc yerimiz yanıb və əlimizdə də vəsait yoxdur ki, digər yerdə obyekt götürüb, işə başlayaq. Lap obyekti pulsuz versələr belə, ilkin vəsait lazımdır ki, iş görək. Ancaq pulu ala bilmirəm".

Məsələ ilə bağlı məlumat almaq üçün Rasim Məmmədovla telefon əlaqəsi saxlamağa cəhd etdik. Telefonu Rasim Məmmədovun işçisi açdı və bildirdi ki, Fazil Yusibovun sənədlərində heç bir problem yoxdur. Yaxın zamanlarda ona dövlət tərəfindən ayrılan vəsait ödəniləcək.

Prezidentin sərəncamı ilə dövlət tərəfindən sahibkarlara verilən vəsaitin miqdarına gəlincə isə qeyd edək ki, mağaza, anbar icarəyə götürmüş zərər çəkmiş sahibkara 10000 manat, piştaxta və digər sahə icarəyə götürmüş zərər çəkmiş sahibkara 2000 manatın verilməsi nəzərdə tutulub.

Contakt.az saytı məlumat yayıb ki, ticarət mərkəzində baş vermiş yanğın nəticəsində mal itkisinə məruz qalan bir qrup sahibkar mayın 1-də Prezident Administrasiyası önündə toplaşıblar.

**Sahibkarlar bu toplaşmaların problemlərinin həll olunmaması ilə izah ediblər:** "Bizə dəyən ziyan ödənməyib, təzyiqlər var, istintaq gedir deyə yanan malları qaytarmırlar", - deyə sahibkarlar bildiriblər.

Onların sözlərinə görə, ilkin yardım kimi nəzərdə tutulan vəsaitlərdən 2 min manat, 10 min manat alan da var, heç almayan da var, hər sahibkara dəyən ziyanın həcmi isə 10 min manatdan 50 min manata qədər və daha yuxarıdır.

**Sahibkarlara görə, onlara iş yerləri təklif edənlər var, problem odur ki, mal almağa pulları yoxdur:** "Bir tərəfdən pulumuz yox mal alaq, digər tərəfdən istintaq gedir deyə mallarımızı götürə bilmirik. Daha bir tərəfdən yardım kimi götürdüyümüz pullar borc-xərclərimizə gedib. Odur ki, dövlət başçısından xahiş edirik ki, bizə kömək etsin. İcraçı direktorlar bizim məruz qaldığımız itkini maliyyə vəsaiti olaraq tam göstərməyə qoymurlar. Deyirlər ki, bizim də borc-xərcimiz var".

**Sahibkarlardan bəziləri bildiriblər ki, hətta evlərinə zəruri ərzaq almağa belə pulları yoxdur:** "Biz heç nə istəmirik, bizə dəyən ziyanın ödənilməsini istəyirik. Prezident fərman verdi ki, vəsait ödənsin, amma aşağıdakılar "bizə "baxaq da, bəlkə" kimi cavab verirlər. Odur ki, son ümid olaraq Prezident Administrasiyasının qarşısına toplaşdıq ki, diqqəti problemimizə cəlb edə bilək". deyə sahibkarlar bildiriblər.

Məlumat üçün onu da qeyd edək ki, martın 26-da "Diqlas" TM-də yanğın baş verdi. Yanğında 400-dən yuxarı sahibkar ziyan çəkdi. Martın 28-də bu məsələ ilə bağlı dövlət başçısı iclas keçirdi. İclasda sahibkarlara dəyən ziyanın ödənməsi, iş yerləri ilə təmin olunmaları ilə bağlı İqtisadiyyat Nazirliyi daxilində komissiya yaradıldı. Bundan əlavə, yanğının səbəblərinin araşdırılması barədə tapşırıq verildi. Martın 29-da sahibkarlara dəyən ziyanın ödənilməsi üçün 3 milyon manat vəsaitin ayırılması barədə sərəncam imzalandı. Xüsusi komissiya isə üç gün ərzində sahibkarları fərdi qaydada qəbul edərək problemlərini dinlədi. Daha sonra isə kompensasiyaların ödənilməsinə başlanıldı.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar: Elçin ƏKBƏROV**

# İş həyatı öldürürmü...

## Pul qazanmaq naminə nələri itiririk - ilginc elmi araşdırma

**Amerikadakı Stanford Universitetinin maliyyə fakültəsindən professor Cefrey Pfeffer "İş həyatı insanları öldürür" deyərkən məcazi mənada danışmır. İş dünyasının ən vacib düşünənlərindən sayılan Pfeffer keçən il yayımlanan "Maaş (Çeki) üçün ölmək" ("Dying for Paycheck") adlı kitabında modern iş həyatı və uzun iş saatlarının iş və ailə həyatı arasında çatışma yaratdığını, maddi etibarsızlığa səbəb olduğunu və insanın fiziki və ruhi sağlamlığına neqativ təsir göstərdiyini qeyd edir.**

"Yeni Müsavat" BBC Türkcəyə istinadən iş həyatı və bizim sağlamlığımız arasındakı əlaqənin detallarını nəzərinizə çatdırır.

Pfeffer kitabda Yaponiyanın paytaxtı Tokioda infarktdan ölən 42 yaşlı Kenji Hamadani misal çəkir. Hamada həftədə 75 saat işləyir və ofisə gəlmək üçün 2 saata yaxın yol gedirdi. 40 gün üst-üstə çalışandan sonra həyatını itirən Hamadanın durumu, Pfeffera görə, "insani olmayan" iş sisteminin bir nümunəsidir və bu durum Yaponiya ilə məhdudlaşmayıb.

Pfefferin araşdırmasına görə, Amerikada iş həyatındakıların 61%-i stressin onları xəstə etdiyini deyərkən, 7%-i işlə bağlı səbəblərə görə xəstəxanalıq olduğunu bildirirlər. BBC News Mundoya açıqlama verən Pfeffer Amerikada hər il 120 min işçinin işə bağlı stress nəticəsində öldüyünü, stressin hər il amerikalı işverənlərə 300 milyard dollardan artıq xərc gətirdiyini iddia edir.

Məsələ ilə bağlı ondan götürülən müsahibədə aşağıdakı detallar da var: Müəllifdən öncə soruşulub ki, "Kitabda iş həyatının zəhərli bir sistem olduğunu deyirsiniz. Modern iş həyatının insanlara təsir etdiyinə dair sübutlar nədən ibarətdir?" Müəllif bildirib ki, sağlamlığın neqativ təsir gördüyünə dair sübutlar mövcuddur. Uzun iş saatları, sağlamlıq sığortasının olmaması, şirkətlərin kiçildilməsi və stress maddi olaraq etibarsızlıq duyğusuna səbəb olmaqla yanaşı, ailə içində də neqativliklərə və xəstəliklərə səbəb olur.

Çalışma insani olmaqdan uzaqlaşıb. Bir yandan, işverənlər işçilərinə qarşı məsuliyyətlərini arxa plana atıb, digər yandan şirkətlərin çalışanları ilə keçici və qısa dönəmli müqavilələr imzaladığı iş etibarsızlığa səbəb olub.

Bəs bunun məsuliyyəti kimin üzərindədir?

1950-60-cı illərdə rəhbərlər işçilərinin, müştərilərinin və səhmdarlarının maraqları arasında əlaqə qurmağı gərəklilik olaraq görürdü. Bu gün isə hissədarlara yönəldilmiş şəkildə irəliləyir. Yatırım banklarının düşünün: Çalışanlar işdən gəlib, evdə qısa bir duş aldıqdan sonra özünü yenidən ofisdə tapır. Bu sistemdə çalışanlar oyaq qalmaq üçün kokain və digər dərman-vasitələrə ehtiyac duyurlar.

***- Daha çox təsir görən sektorlar varmı?***

- Fabrik işçiləri, pilotlar və yük maşını sürücülərinin çalışa biləcəyi saatlar məhduddur. Amma bir çox peşənin heç saat məhdudiyyəti yoxdur.

***- Kitabda iş həyatının 5-ci ən böyük ölüm səbəbi olduğunu deyirsiniz.***

- Vəziyyət daha da pis ola bilər. Bundan işverənlər məsuliyyət daşıdığı qədər hökumətlər də məsuliyyət daşıyırlar, amma bu mövzuda heç bir şey etmirlər.



***- Siyasətçilər nə edə bilir?***

- Onların rolu böyükdür. Sistematik bir problem fərdi olaraq həll edə bilmərik, yenə sistematik bir müdaxilə və bir cür düzənləmə lazımdır. Şirkət rəhbərləri isə bu rəqəmləri sorğulamır. Səhiyyə maliyyələri çox böyük olsa belə, problemi görür, amma bunu həll etmək üçün çarə axtarmaq istəmirlər. Halbuki iş şərtlərinin diabet və ürək problemləri kimi xroniki xəstəliklərə səbəb olduğu bilinir.

***- Bəs şirkətlər mümkün olacaq bir sistem dəyişikliyinin şirkət qazancına neqativ təsir göstərəcəyini müdafiə etməyəcəkmi?***

- Bu doğru deyil. Stressli çalışanların istefa etmə ehtimalının daha yüksək olduğunu, fiziki və ya ruhi sağlamlıq problemləri olan işçilərin də daha az məhsuldar olduğunu bilirik. Amerika və İngiltərədə aparılan araşdırmalar, alınan icazələrə görə itirilən iş günlərinin çalışmaya bağlı stresslə əlaqəsi olduğunu göstərir. Amerika Stress İnstitutu bunun maliyyəsinin ildə 300 milyard dollara qədər çatdığını deyir. Dolayısı ilə xəstəlik icazəsi alan və ya ofisə gedən, amma məhsuldarlığı az olan işçilərinizin olması çox daha maliyyətli. Hətta iş yerləri üçün bir sərvətə başa gəlir.

***- Bəs işçilər şərtlərini necə dəyişdirə bilir?***

- Öncəliklə çalışanların öz sağlamlıqlarına diqqət etmə məsuliyyətini üzərinə götürməsi lazımdır. Əgər ailə və iş həyatı arasında balans qurmanıza icazə vermirsə, çalışdığınız qurumu atmalısınız. Bəziləri bunu edə bilməyəcəyini deyir. Mən isə deyirəm ki, "əgər həddən artıq duman içindəki bir otaqdasınızsa, buradan çıxmağa çalışırsınız. Çünki sağlamlığınıza ciddi təsirləri ola bilər". İnsanlar özləri üçün həm müvafiq qanunları tələb edə bilməli, həm də özlərini qorumaq üçün ortaq hərəkət edə bilməlidir. Çünki burada cəmiyyətə böyük təsirlərdən söhbət gedir.

❑ **Sevinc,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

# Trampın Silah Ticarəti Sazişindən çıxmaq qərarı dünyaya nə vəd edir?

## Tofiq Zülfüqarov: "Tramp lazım olmayan qadağalara çox da fikir vermir, ABŞ-ın maraqları əsasında siyasət yürüdür"

**Ötən cümə günü ölkənin ən güclü silah hüquqları müdafiəsi qrupu olan Milli Silah Assosiasiyasının illik toplantısında prezident Donald Tramp ABŞ-ın 2013-cü ildəki Birləşmiş Millətlər Təşkilatının Silah Ticarəti Sazişindən geri çəkildiyini və bunun xarici silahlı münaqişələrə silah verilməsinin qarşısını almaq məqsədi daşıdığını bildirib.**

Bununla bağlı "Amerikanın Səsi"nin yaydığı məlumata görə, amerikalılar 390 milyondan çox silaha sahibdir. Bu isə dünyada silah sahibi olan vətəndaşların sayının təxminən yarısını təşkil edir. Bu silah sahiblərinin əksəriyyəti ABŞ-ın siyasətində təsirli lobbiçilik qrupu və ABŞ-ın BMT razılığına qoşulmasını dayandırmaq üçün sərəncam imzalayan prezident Donald Trampın yaxın müttəfiqi olan Milli Silah Assosiasiyasının üzvləridir. "Mənim rəhbərliyim heç bir zaman BMT Silah Ticarəti müqaviləsini ratifikasiya etməyəcək. Ümid edirəm sevindiz" - Donald Tramp deyib.

BMT-nin Silah Satışı üzrə beynəlxalq razılaşma 2013-cü ildə Obama administrasiyası dövründə imzalanıb, lakin heç zaman Senat tərəfindən ratifikasiya edilməyib. Bu razılaşma qeyri-nüvə silahlarının transsərhəd təchizatını tənzimləyir və insan hüquqlarının pozulmasına yol verənlərə qeyri-qanuni silahlardan istifadəyə mane olur. Tomas Kantrimən müqavilə üzrə ABŞ-ın aparıcı vasitəçisi olub. "İran, Şimali Koreya və Suriya 2013-cü ildə bu müqaviləyə səs verməkdən imtina edən yeganə ölkələr olub. İndi isə ABŞ da özünü bu ölkələrlə bir sıraya qoyur", Silaha Nəzarət Assosiasiyasından Tomas Kantrimən deyib.

Qeyd edək ki, BMT razılaşması Milli Silah Assosiasiyası (NRA) və amerikalıların silah sahibi olmaq hüququnu müdafiə edən konstitusiyanın 2-ci düzəlişini pozacaqlarına inanan digər mühafizəkar qruplara ziddir. Tramp razılaşmanı rədd edərək, öz administrasiyasının silah hüquqlarını müdafiə edəcəyini göstərməyə can atır. Hesab olunur ki, 2020-ci ildə yenidən prezident seçilməyə çalışan Tramp üçün NRA-nın dəstəyi vacibdir. Trampın bu qərarı Paris İqlim sazişi və İranın nüvə razılaşması kimi beynəlxalq müqavilələrdən çıxması kimi addımların sonuncusudur. "Bu, ABŞ-ın dünyadakı etibarlılığı və liderliyini daha da azalda bilər", Tomas Kantrimən deyib.

Administrasiya rəsmiləri qeyd ediblər ki, Rusiya və Çin də daxil olmaqla, 25 ən çox silah ixrac edən ölkədən 17-si indiyədək 96 ölkənin ratifikasiya etdiyi BMT-nin Silah Ticarət Sazişini imzalamayıblar. Trampın qərarı dünya üçün nələr vəd edir?

**Sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ABŞ öz xarici siyasətinin vacib elementi kimi, bu və ya digər ölkələrə silah satışına çox böyük önəm verirdi:** "İndi də həmin məsələ mövcuddur. Çünki baxsaq, bu təcrübə çoxdan var. ABŞ konfliktlərdə iştirak edən ölkələrə silah satışını həyata keçirməklə bağlı tələbləri çoxdan pozurdu. Xüsusilə Yaxın Şərqdəki konfliktləri nümunə kimi götürmək olar". **Keçmiş nazir bildirdi ki, Qarabağ münaqişəsi ilə bağlı da silah qadağası olmalı idi:** "Əslində BMT qətnamələri mövcud olduğundan heç bir ölkə bu və ya digər konfliktdə iştirak edən ölkələrə silah verməməli idi. Amma həm Azərbaycan müxtəlif ölkələrdən silah alır, Ermənistana da silah verilir. Yeni ölkələr artıq BMT qətnamələrinin tələblərini pozublar. Bizim xəbərimiz var ki, digər həmsədr ölkə Fransanın istehsal etdiyi silahlar Yunanıstan vasitəsilə Ermənistana ötürülüb və sair". **T.Zülfüqarov BMT-də problemlərin çox olduğunu da vurğuladı. Qeyd etdi ki, bu qurum hərdən ABŞ-ın əlində alətə çevrilir:** "Trampın siyasətinə diqqət etsək, o, lazım olmayan qadağalara çox da fikir vermir, ABŞ-ın maraqları əsasında siyasət yürüdür".

**Amma ABŞ rəsmisi Con Boltonun İrəvanda "silahı Rusiyadan yox, bizdən alın" məzmunlu çağırış etməsi də faktdır. Belə olduğu halda, Trampın qərarının nə dərəcədə işlək olacağı da sual doğurur. T.Zülfüqarov bu barədə danışarkən dedi ki, Ermənistan ABŞ-dan silah ala bilməyəcək:** "Bolton daha çox işarə etdi ki, Rusiya tərkibindən çıxın, sizə bu və ya digər şəkildə kömək edək. Azərbaycana gəldikdə, ümumiyyətlə, ABŞ silahları bahadır. Amma Azərbaycanın onların analoqlarını digər ölkələrdən almaq imkanı indi də var. İstisna etmirəm ki, gələcəkdə Azərbaycanın bu silahları almaq imkanı da olacaq".

Bu da məlumdur ki, Azərbaycana qarşı ABŞ-ın sanksiyası hələ 1992-ci ilin payızından tətbiq olunur. Söhbət Azadlığı Müdafiə Aktına 907-ci düzəlişdən gedir. T.Zülfüqarov qeyd etdi ki, ABŞ prezidentinin rəyi ilə bu düzəlişin tətbiqi dayandırılır: "Bu baxımdan, istəsələr, Azərbaycana silah sata bilərlər.

ABŞ böyük miqdarda silah satır və dünyada ən böyük silah ticarətçisidir. Eyni zamanda silah bazarının böyük hissəsi də kredit yolu ilə satılır. Yeni hansısa ölkəyə kredit verilir, deyilir ki, filan silahları almağa məcbursunuz. Bu baxımdan Trampın qərarı ABŞ-ın xaricdəki maraqlarını daha çevik müdafiə etmək üçün addımdır. İnanmıram ki, bizimlə bağlı vəziyyət hansısa şəkildə dəyişəcək". Eks-nazir bu qərarın Rusiya ilə bağlı siyasətə təsir etməyəcəyini də vurğuladı: "Əsas maraq digər nöqtələrlə, ilk növbədə İsraillə bağlıdır. Həmçinin Misirlə də bağlı ola bilər. Əvvəllər də müəyyən qadağalar mövcud idi və bu qadağalar ABŞ büdcəsinin formalaşmasına müəyyən problemlər yaradırdı".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**



# ABŞ "Müsəlman Qardaşlar"ı terror siyahısına salır

## Trampın terror təşkilatı elan etməyə hazırlaşdığı "ixvan" haqda bilinənlər

**ABŞ prezidenti Donald Tramp Misirin "Müsəlman Qardaşlar" (İxvan əl-Muslimun) qrupunu terrorçular siyahısına salmağa hazırlaşır. "Amerikanın Səsi" Ağ Evə istinadən bildirib ki, prezident milli təhlükəsizlik komandası və region liderləri ilə məsələni müzakirə edib.**

Əgər Tramp bu təşkilatı terror təşkilatı siyahısına salarsa, o zaman Vaşinqton bu qrupun üzvləri və qrupa qarşı sanksiyalar tətbiq edə biləcək. Qeyd edək ki, aprelin əvvəlində Misirin hazırkı prezidenti Əbdülfəttah əs-Sisi Vaşinqtona səfər edərək Trampla görüşüb. ABŞ prezidenti misirli həmkarını tərifləyib və iki ölkə münasibətlərinin indiki qədər güclü olmadığını deyib. Əbdülfəttah əs-Sisi 2013-cü ildə "Müsəlman Qardaşlar" Təşkilatının təmsilçisi, prezident Məhəmməd Mursini devirərək hakimiyyətə gəlib.

ABŞ prezidentinin bu qərarının arxasında bir sıra səbəblərin olduğu ehtimal edilir. Birincisi, bu qərar məhz Sisinin Vaşinqton səfəri ilə olan əlaqədir. Aydın məsələdir ki, hər nə qədər çevrilişdən sonrakı 6 ildə Sisi iqtidarı "ixvanı" əzməyə çalışsa da, müsəlman aləminin ən böyük və qədim dini-siyasi təşkilatı öz varlığını və gücünü qoruyub saxlayır. ABŞ-ın "terrorçu" kimi tanıması Misir hakimiyyətinə "ixvan"a qarşı təzyiqləri daha da artırması üçün əsas verəcək.

İkinci səbəb regional amildir. Məlum olduğu kimi, Sudanda inqilabdan sonra daha bir "ixvan" hakimiyyəti devrilib. Ancaq buna baxmayaraq, müsəlman aləmində bir sıra ölkələrdə bu təşkilat birbaşa və ya bilavasitə hakimiyyətdədir. Bu ölkələr arasında Qətər başda gəlir. Qətər hökuməti "ixvan"ı dəstəkləyir. Eyni zamanda Fələstinin Həmas hərəkatı, eləcə də Suriyada, Yəməndə, o cümlədən Liviyada paytaxt Tripoliyə nəzarət edən Milli Uzlaşma hökuməti "ixvan" xəttindədir. Həmçinin Türkiyənin hazırkı hakimiyyətində bu təşkilata yaxın şəxslər təmsil olunur və Türkiyə hakimiyyəti müxtəlif dövrlərdə bu təşkilata dəstək verib. Ancaq Səudiyyə Ərəbistanı və BƏƏ kimi körfəz ölkələri, o cümlədən Misir, Küveyt, Bəhreyn kimi dövlətlər "ixvan"a qarşıdır. Bu təşkilata Vaşinqtonun münasibətinin dəyişməsində məhz regional amilin təsiri ola bilər.

Yeri gəlmişkən, Misir məhkəməsi 2013-cü ilin oktyabrında "Müsəlman Qardaşlar" təşkilatının fəaliyyətini qadağan edib. həmin ilin dekabrında isə Misir hökuməti "Müsəlman Qardaşlar" Təşkilatını terror təşkilatı elan edib. Amma buna qədər "ixvan" çox uzun bir yol qət edib.

"Müsəlman Qardaşlar" Hərəkatı 1928-ci ildə Misirin İsmailiyyə şəhərində Həsən əl-Bənna və daha bir neçə gənc tərəfindən yaradılıb. Bu hərəkat 19-cu əsrin sonlarında müsəlman aləmində formalaşan islam oyanışı və ya başqa adla siyasi islamçılığın dalğasında yaranmış ilk təşkilatlardan biri idi. Camaləddin Əfqaninin müsəlman coğrafiyasında başlatdığı oyanış dalğasının bir mərkəzi də Misir idi. Başlanğıcda daha çox dini maarifçilik, xeyriyyə, təhsil fəaliyyətləri olan "ixvan" daha sonra Fələstində müsəlmanlara dəstək verir. Və bundan sonra təşkilata qarşı təzyiqlər başlayır.

Britaniyanın Misirdəki səfirliyi 1942-ci ilin fevralında "Müsəlman Qardaşlar" Hərəkatının qapadılması üçün Misir hökumətinə müraciət edib. 1948-ci ildə "Müsəlman Qardaşlar" hərəkatı rəsmən qapadılır. Misirin baş naziri Mahmud Fəhmi ən-Nakrişi hökuməti "quruluş məqsədlərindən kənara çıxmaq" ittihamı ilə təşkilatı bağlayır.

Bu qərardan bir qədər sonra hərəkatın qurucusu Həsən əl-Bənna sui-qəsdə uğrayaraq öldürülür. Yalnız iki ildən sonra seçkiləri qazanaraq hökumət quran milliyyətçi "Əl-Vəfd" Partiyası həbs olunan "ixvan" liderlərini azad etməklə yanaşı hərəkata yalnız bir xeyriyyə təşkilatı kimi fəaliyyət göstərmək haqqı tanıyır.

1952-ci ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gələn Camal Əbdül Nasir və "Azad Zabitlər" Təşkilatı ilə "ixvan" arasında əvvəlcə yaxın münasibətlər olsa da, sonradan münasibətlər pozulur. Bir ildən sonra Misir hakimiyyəti "ixvan" və "Azad Zabitlər" təşkilatı tərəfdarı tələbələr arasında baş verən qarşıdurmasını əsas göstərərək "Müsəlman Qardaşlar" Hərəkatını yenidən qapadır. Bu prosesdə 450 nəfər hərəkat fəalı həbs olunur. Bundan sonra Nasirə sui-qəsd ittihamı ilə ölkə boyu həbslər başlayır və sonrakı iki il ərzində Misirdə həbsxanalar islamçılarla doldurulur.

Nasirin ölümündən sonra hakimiyyətə gələn Ənvər Sədat ölkədə müəyyən yumşalmalar həyata keçirir və 1977-ci ildə siyasi partiya və dərnəklərin fəaliyyətinə icazə verən qanun qəbul edir. Ancaq sonrakı 15 il ərzində məhkəmə prosesləri davam etsə də "ixvan"a hüquqi fəaliyyət üçün razılıq almaq mümkün olmur. Xüsusən də 1981-ci oktyabrın 6-da Qahirədə keçirilən "qələbə günü" münasibətilə rəsmi parad zamanı "ixvan" hərəkatına yaxın "təkfir və hicrə" qruplaşmasının üzvü zabit Xalid İslambulinin başçılıq etdiyi qəsdçilər Ə.Sədatı öldürürlər. Bundan sonra ölkədə islamçılara qarşı təzyiqlər daha da artır, yüzlərlə dindar həbs olunur.

Ancaq buna baxmayaraq, hərəkat fəaliyyətini qeyri-leqal da olsa davam etdirir. 2005-ci il parlament seçkilərində 80-ə yaxın "ixvan" üzvü müstəqil şəkildə parlamentə seçilir. Ancaq bununla belə, Mübarək hökuməti vaxtaşırı ölkədə ən böyük qeyri-leqal islamçı hərəkata qarşı repressiyalar həyata keçirməklə onları təzyiq altında saxlayır.

Ancaq "ixvan" təkcə Misir deyil, bütün müsəlman aləminə yayılır. Demək olar ki, əksər müsəlman, xüsusən də ərəb ölkələrində yerli "qardaşlar" cəmiyyətləri yaradılır. Əlcəzair, Yəmən, Suriya, İordaniya, Küveyt, Qətər, Səudiyyə Ərəbistanı kimi ölkələrdə "ixvan" güclü yerli təşkilatları yaranır.

"Ərəb baharı"nın əsas qüvvələrindən biri də "ixvan" olur. 2011-ci il yanvarın 25-də Qahirədə ilk etiraz aksiyası keçiriləndə və bu aksiyalar tezliklə inqilaba çevriləndə "ixvan" meydana çıxdı. "Müsəlman Qardaşlar" Misir inqilabının aparıcı qüvvəsinə çevrilib. Mübarək devrildikdən az sonra "ixvan" "Azadlıq və Ədalət" Partiyası yaradaraq siyasi fəaliyyətə qatılır və 2011-ci ilin payızında parlament, 2012-ci ilin yayında isə prezident seçkilərini qazanır, təşkilatın üzvü Məhəmməd Mursi Misirin prezidenti seçilir. Ancaq "ixvan"ın hakimiyyəti cəmisi bir il davam edir. 2013-cü il iyulun 3-də ölkədə hərbi çevriliş baş verir və prezident M.Mursi devrilərək həbs olunur.

Hərbi çevrilişdən sonra 40 günə yaxın Qahirə və digər iri şəhərlərdə "ixvan" üzvlərinin etirazları davam edib. Ancaq hərbi hakimiyyət bu etirazları zorakılıqla yatırıb və bu zaman 3 min nəfərdən artıq insan öldürülüb, 10 mindən artıq insan yaralanıb. Eyni zamanda çoxlu sayda "qardaşlar" üzvü həbs olunub. Hazırda yüzlərlə "ixvan" üzvü, o cümlədən prezident Mursi və təşkilat liderləri edama məhkum olunub, bir çoxları edam edilib. Lakin bununla belə, "ixvan" müsəlman aləmində hələ də güclü, təsirli təşkilat olaraq qalmaqdadır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 94 (7264) 2 may 2019

# Xəyanətə uğrayan qadın necə davranmalıdır - psixoloq rəyi

## "Qadın bilsə ki, kişi niyə xəyanət edir, sonda özü üçün düzgün nəticə çıxarar"

**Bu günlərdə sosial mediada və bəzi mətbuat orqanlarında bir qadının ərinin məşuqəsinin evinə basqın etdiyi barədə video yayıldı. Xəyanətə məruz qalan qadın evə basqın edərək, hadisəni anbaan kameraya çəkib. Məlum videodan belə məlum olurdu ki, basqına məruz qalan gənc qadın ilk anda nə baş verdiyini dərk edə bilmir. Lakin sonradan tərəflər arasında təhqir dolu dialoq yaşanır. Beləliklə, video sosial şəbəkələrdə yayımlandığı andan gündəm yarada bildi. Hətta Daxili İşlər Nazirliyi də məsələyə reaksiya verərək bildirdi ki, bu cür videoların mətbuatda, sosial şəbəkələrdə yayılması doğru deyil. Bu açıqlamadan sonra video bir çox xəbər saytlarından yığışdırıldı.**



Hər bir halda, qadınların bu cür davranışı ikrah doğurur. Düzdür, belə vəziyyətlərdə emosiyaları idarə etmək çətindir. Amma maraqlıdır, normalda qadın bu cür situasiyada necə davranmalıdır?

Məlum məsələdir ki, dünyanın hər bir yerində qadınların əksəriyyəti müxtəlif formalarda kişilərin xəyanəti ilə üzləşir və reaksiyalar da müxtəlif cür olur. Müşahidələr onu göstərir ki, intellektual səviyyəli, özünə inamı olan qadınlar əsasən bu cür situasiyalarda daha təmkinli davranış nümayiş etdirməyə çalışır.

**Qadınları ilk öncə bir sual maraqlandırır - kişilər niyə xəyanət edir? Amerikalı psixoloq M.Gray Neuman "Kişilər niyə xəyanət edir" mövzusunda 200 kişi üzərində araşdırma aparıb. Onun tədqiqatında iştirak edən kişilərin hamısı evli olub və hamısının da xanımına xəyanət etdiyi məlum olub. Onlar xəyanət etmə səbəblərini bu cür izah ediblər:** "Tam yarısı psixoloji cəhətdən yoldaşı tərəfindən başa düşülməməsini səbəb göstərib. Kişilərin də diqqətə və qayğıya ehtiyacı olduğu halda qürurlu olması bu ehtiyacın görünməsinə əngəl olur və qadınlar kişilərdən diqqət tələb etməklə bərabər özləri onlara qarşı diqqətsiz qalırlar. Nəticədə isə kişi diqqəti başqa qadınlarda axtarmağa başlayır.

Digər səbəb isə intim problemi göstərilib. Tədqiqatlar göstərib ki, xəyanət edənlərin 68%-i nə vaxtsa həyat yoldaşına xəyanət edəcəyini ağlına da gətirməyib. Həmçinin araşdırmalara görə əksər hallarda xəyanət edən kişi xəyanət edərkən və ondan sonrakı dövrlərdə daima peşmanlıq duyğusu ilə yaşayır.

İngiltərədə aparılan tədqiqatdan isə məlum olub ki, evli kişilərin yüzdə 21-i həyat yoldaşına xəyanət edir. Bu göstərici vətəndaş nikahında yaşayan cütlüklərdə yüzdə 51-dir. Kişilərin 44 faizi qarşı cinsin cazibəsinə və gözəlliyinə heyran olduqları üçün xəyanət etdiyini bildirib.

Kanadada aparılan araşdırmada isə məlum olub ki, kişilərin 50 faizi xanımı tərəfindən romantik və hissi qarşılıq görmədiyindən, yüzdə 30-u yoldaşı ilə "dil tapa bilmədiyindən", yüzdə 20-si isə xanımı ilə cinsi problemlər yaşadığından xəyanət edir.

Ümumiyyətlə isə psixoloqlar əksər hallarda kişilərin xəyanət etməsinin qadınlardan asılı olduğunu bildirir. Məsələn, qadın daha çox emosional, qısqanc, deyingən olmağa başladığı andan və yaxud öz görkəminə fikir vermədikdə, qarşı tərəfə öz sevgisini, qayğısını ötürmədikcə gec-tez xəyanətə uğrayırlar. Lakin heç də həmişə səbəbkar qadınlar olmur. Potensial olaraq kişilər uyğun zaman baş verdikdə xəyanətə meylli olur. Hətta belə bir iddia da var ki, kişi əgər ömür boyu bir qadınla kifayətlənirsə, ya onda anormallıq var, ya da ki, partnyorunun sadəcə bəxti gətirib.

**Psixoloq Ramil Nəcəfli mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Xəyanət edən kişini mühakimə etməzdən əvvəl düzgün şəkildə təhlil aparmaq lazımdır. Çünki vəziyyəti düzgün analiz etdikdə səbəbi öyrəndikdə, hətta xəyanətin qarşısını almaq olur və gələcəkdə xəyanət baş vermir. Və yaxud əvvəlcədən xəyanətə hazırlıqlı olmaq lazımdır. Belə olan halda xəyanət hadisəsi qadın üçün sürpriz olmur, çətin depressiya yaşamır. Qadın müəyyən mənada vəziyyətin fərqində olur və bu zaman daha ağıllı, təmkinli davranış olur. Qadın bilsə ki, kişi niyə xəyanət edir, sonda özü üçün düzgün nəticə çıxarar.

Tez-tez şahidi oluruq ki, qadınlar "ərim mənə xəyanət edir" deyə yaxınlarına şikayət edir, psixoloq, parapsixoloq, falçı yanına gedir ki, əri bir daha ona xəyanət etməsin. Ümumiyyətlə, evli kişilər əsasən 4 səbəbdən xəyanət edir. Xəyanət əsasən sevməyib evləndikdə baş verir. Ola bilsin ki, kişi ailəcanlıdır, evin bütün problemlərinin öhdəsindən gəlir, amma xəyanət edir. Yəni əvvəldən sevgisizlik yaşayır, illər keçdikdən sonra həyatında yenilik etməyə çalışır və xanımına xəyanət edir. 2-ci səbəb isə başqadır. Bəzi kişilər sevib evlənib, hətta xanımı ilə bir müddət romantik günlər də yaşayıb, hər şey gözəl olub. Lakin 5-6 ildən sonra kişi arvadını sevsə də, ona yenə də hörmətlə yanaşsa da, xəyanət edir. Bunlar acgöz kişilərdir, yəni həyatlarında yeni qadınların olmasına meylli olur, daim həyəcan, adrenalin istəyir. Tez-tez şahidi oluruq ki, 35-40 yaşlarında olan evli kişilər həyəcan axtarışında olur. Çünki ailəsində həyəcan yoxdur, həyat yoldaşı ilə emosional çatışmazlıq yaşayır.

3-cü səbəb isə kişilərin bir çox hallarda öz həyat yoldaşından intim həzzi almamağı olur. Kişi evə çox bağlıdır, öz ailəsini sevir, hər şey qaydasındadır, lakin həyat yoldaşı ilə istədiyi performansı yaşaya bilmir. Lakin başqa qadınla istədiyi performansı yaşayır və xanımına xəyanət etməli olur.

4-cü səbəb isə sırf mənəvi məsələdir. Bəzən qadın kişidən daha çox qazanc əldə edir və yaxud kişidən daha ağıllı və bacarıqlıdır. Bu zaman kişi artıq həyat yoldaşının yanında özünü performanslı hiss edə bilmir, zəif olduğunu düşünür, özünə inamı azalır. Bu baxımdan kişini heç bir mənada aşağılamaq olmaz. Qadınlar bacardığı qədər kişiləri az tənqid etməli, onun bacardığı işləri tələb etməli, ona dəstək olmalıdır. Belə olmadıqda kişini özünə inamını artırmaq üçün hətta öz həyat yoldaşından zəif, heç də gözəl olmayan qadınla belə xəyanət edir. Çünki onun yanında özünü əsl kişi kimi hiss edə bilir, ona pənah aparır.

Beləliklə, qadınlar bu səbəbləri öyrənib, düzgün təhlil apardıqda xəyanətlə üzləşmir. Mütləq bu cür situasiyalarda təmkinli davranmalı səbəb və nəticələri araşdırmaq lazımdır".

**Bəs kişinin xəyanət etdiyini necə bilmək olar?**

**Psixoloqlar xəyanət edən kişinin davranışlarını bu cür izah edir:**

***1.*** *Kişi bu zaman həyat yoldaşına qarşı daha çox diqqətli olmağa çalışır.*

***2.*** *"Əgər nə vaxtsa sənə xəyanət etsəm, mənimlə necə davranarsan?" kimi suallar verməyə başlayır. Bununla da qarşı tərəfin onun sevgilisi ilə münasibətinin öyrəndikdə verəcəyi reaksiyanı bilməyə çalışır.*

***3.*** *Səbəbsiz yerə tez-tez mübahisə etməyə başlayır.*

***4.*** *Müxtəlif bəhanələrlə həyat yoldaşı ilə daha az zaman keçirməyə, daha az danışmağa başlayır. O, belə etməklə xəyanətini ört-basdır edə biləcəyini düşünür.*

***5.*** *Özünü birdən-birə daha çox bəyənməyə başlayır, zamanının çoxunu güzgü qarşısında keçirir.*

***6.*** *Artıq bütün tənqidləri səbirsizliklə qarşılayır.*

***7.*** *Həyat yoldaşının görkəmi daha onu maraqlandırmır.*

***8.*** *Birdən-birə dostlarına daha çox zaman ayırmağa başlayır.*

**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

# AQTA hüquq-mühafizə orqanlarına müraciət edib

## Sahibkarlardan saxta sənəd və qəbz qarşılığında pul alınması halları ilə bağlı faktlar aşkar olunub

**Son günlər Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) adından istifadə edərək sahibkarlıq subyektlərində qanunsuz yoxlamaların aparılması və müxtəlif tələblər irəli sürməklə vətəndaşlardan hər hansı saxta sənəd və qəbz qarşılığında pul alınması halları ilə bağlı faktlar aşkar olunub.**

AQTA-dan ONA-ya verilən məlumata görə, həmin hadisələr Agentlik tərəfindən ictimailəşdirilməklə yanaşı, qanunvericilik çərçivəsində tədbirlərin görülməsi üçün hüquq-mühafizə orqanlarına göndərilib. Buna baxmayaraq, hələ də müxtəlif bəhanələr altında sahibkarlardan saxta sənədlər təqdim etməklə qanunsuz olaraq ödəniş tələb edən şəxslərlə bağlı məlumatlar daxil olmaqdadır.

Agentlik qida sahəsində fəaliyyət göstərən sahibkarların diqqətinə çatdırır ki, qurumun fəaliyyət istiqamətləri çərçivəsində aparılan istənilən baxış, monitorinq, yoxlama və s. tədbirlər zamanı yerində hər hansı ödənişin olunması mexanizmi mövcud deyil. Eyni zamanda Agentliyin bu sahədə fəaliyyətini və sahibkarlıq subyektləri ilə birbaşa təması yalnız xüsusi qruplarda təmsil olunan müfəttişlər həyata keçirir. Həmin müfəttiş qruplarından kənar heç bir şəxs və AQTA əməkdaşı müvafiq sahə üzrə sahibkarlıq sturukturuna daxil ola və hər hansı yoxlama həyata keçirə bilməz.

"Qida sahəsində fəaliyyət göstərən sahibkarlardan bir daha xahiş olunur ki, müxtəlif adlar altında yoxlama tədbirləri ilə sahibkarlıq subyektinə daxil olan istənilən şəxsdən, eləcə də AQTA əməkdaşından yoxlamanın keçirilməsinə dair aşağıdakı sənədləri tələb etsinlər:

- Yoxlamanın aparılmasına dair icazə sənədi - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin yoxlamanın aparılmasına dair vahid məlumat reyestrindən çıxarış
- Həmin sahibkarlıq subyektində müvafiq yoxlamanın aparılması ilə bağlı vəzifəli şəxs tərəfindən qəbul edilmiş qərarın əsli
- Yoxlamanı həyata keçirən müfəttişlərin xidməti vəsiqəsi
- Yoxlamaya dair əvvəlcədən təsdiq edilmiş yoxlama suallarının siyahısı
- Sahibkarın hüquq və vəzifələrinə dair şifahi məlumatın yoxlayıcı tərəfindən izah olunması
- Yoxlamanı həyata keçirən müfəttişlərin ad və soyadlarının yoxlamanın aparılması ilə bağlı vəzifəli şəxs tərəfindən qəbul edilmiş qərarda öz əksini tapması".

AQTA sahibkarların nəzərinə çatdırıb ki, hər hansı tələb və ya xidmət əsasında sahibkarlıq subyektinə daxil olaraq yerində ödəniş tələb edən şəxslər Agentlik əməkdaşları deyil və istənilən halda yerində ödəniş etməsinlər. Bununla bağlı şübhəli məqam olduğu təqdirdə dərhal hüquq-mühafizə orqanlarına və ya Qida Təhlükəsizliyi Agentliyinin 1003 saylı "Qaynar xətt"inə məlumat versinlər.

YENİ MÜSAVAT

Son səhifə

N 94 (7264) 2 may 2019



## Kökəldiyi üçün arvadını atdı

Çində bir kişi doğuşdan sonra 40 kilo kökələn həyat yoldaşını atıb. Bu barədə "Daily Mail" nəşri xəbər verib. İlk uşağı dünyaya gələnə qədər Lyu Yatzyuanın çox gözəl bədən quruluşu var idi və cəmi 50 kilo idi. "Mən hər zaman diqqət mərkəzində idim", - o, izah edir. Amma doğuşdan sonra qadın kökəlməyə başlayır və bu zaman əri boşanmaq üçün müraciət edib. "Keçmiş ərim mənə belə deyirdi: "Sən arıq olanda məni hər şey təmin edirdi. Amma mən indi sənin xarici görünüşünü həzm edə bilmirəm", - çinli qadın bildirib.

Piylənmə nəinki onun evliliyini pozub, eyni zamanda səhhətinə də pis təsir göstərib. Bir neçə orqanı sıradan çıxan qadın sonda qərar verib ki, əvvəlki bədən formasına qayıtmalıdır. İki yaşlı oğlu onu gülüş hədəfinə çevirəndə isə o, növbəti dəfə ayılıb: "Hərdən oğlum deyir: "Ana böyük və yağlı bir xaladır". Onun bu sözləri hər dəfə məni ağrıdır".

Çinli qadın Living it Up realiti şousunda iştirak edib. Orada insanlar böyük miqdarda pul mükafatı qarşılığında arıqlayırlar. Birinci və gücləndirilmiş məşqlərdən, eləcə də düzgün qidalanmadan sonra o, 3.3 kilo arıqlayıb və 13 rəqibini geridə qoyub. Qadının bu hekayəsi sosial şəbəkə istifadəçiləri arasında qızğın reaksiyalara səbəb olub. Bir çox şərhçilər onun ərinin hərəkətinin qəbuledilməz olduğunu yazıblar. "Sənin həyat yoldaşın ikinci uşağını dünyaya gətirəndən sonra kökəlib. Sən onu bu səbəbdən kökəldiyinə görə atdığın üçün özünü necə kişi hesab edə bilərsən?"

Digərləri isə qadın xoşbəxtliyinin bədən ölçülərindən asılı olmadığını yazıb. "Sən sadəcə arzulanan adamını tapmamısan" deyənlər də çoxluq təşkil edib.

# İtlərini xilas etmək istədi, özü öldü

Braziliyalı model Karolina Bittenkurt boğulmaq təhlükəsi olan iki itini xilas etmək üçün suya hoppanıb və dünyasını dəyişib. Bu barədə informasiya saytı Exitoina xəbər verib. İnsident 28 apreldə, Braziliyanın İlyabela adasında baş verib. "Gəmidə modelin özü, əri və köpəkləri vardı. Birdən güclü küləyə görə onların heyvanları suya düşdülər. Bu zaman qadın onları xilas etmək üçün suya hoppanıb. Onun əri Xorxe Sestini də onun ardınca suya düşüb. Amma güclü külək sayəsində onlar bir-birini gözdən itiriblər.



Əri çox fədakarcasına 37 yaşlı xanımını xilas etməyə çalışıb. Amma son nəticədə o, sahilə çıxmaq üçün bir neçə saat üzmək zorunda qalıb. Xilasedici briqada modelin cəsədini tapmaq üçün hadisə yerinə gəlib. Ölən modeli bir gün sonra, 29 apreldə tapmaq mümkün olub. İtlərin taleyi isə bilinmir.

# Pişik qaçdı və bir həftə aeroportda gizləndi

Nyu-Yorkdakı Con Kennedi aeroportunda bir həftədir polisdən qaçmağa nail olan Pepper ləqəbli pişiyi yaxalayıblar. Pişik öz sahibindən sonuncu Çinə gedərkən qaçmağı bacarıb. O, pişiyi olmadan uçmağa məcbur qalıb, heyvan isə Nyu-Yorkda qalıb. Polislər bir neçə dəfə Pepperi aeroportda görsələr də, onu yaxalamaq mümkün olmayıb.

28 apreldə polisin köməyinə Cersi Siti şəhər sakini Nuan Tan gəlib. O, Pepperin sahibəsi ilə tanış idi. O, aeroporta gəlib və onu çin ləqəbi ilə, "Day Men" olaraq çağırıb. Sonuncu tanış səsə çıxıb və bu, onun yaxalanmasına səbəb olub. İndi isə Nuan Tan Pepperi öz sahibinə çatdırmağa hazırlaşır.

2013-cü ildə xəbər verildi ki, Vankuver beynəlxalq aeroportunda pişiklərə aid yerdən iki pişik qaçıb. Pişiklərdən birini yaxalayıblar və iki gün sonra sahibinə qaytarıblar. İkinci pişiyin axtarışı uzun müddət davam etsə də, son nəticədə onu tapıblar.





## Ataların yuxusu analarınkından daha dərindir

Uşaq sahibi olan qadınlar həftədə 5 saat, kişilər isə 2 saat daha az yatır. Cütlüklər üzərində aparılan araşdırmaya görə, xüsusən iş qadınları ana olandan sonra həftəlik yuxularından "itirirlər". Avstraliyada yerləşən "Queensland" Universitetində aparılan araşdırmaya görə, işgüzar qadınlar evdar həmcinslərindən həftə ərzində 5 saat daha az yatırlar. Araşdırma onu da göstərib ki, uşaq sahibi olmaq ataların da yuxu sistemini dəyişdirir. Bir qadın ana olan zaman həftəlik orta hesabla 48.8 saat yatır. Bu müddət uşaqların sayı artdıqca azalır. Analar 2-ci uşaqlarına sahib olduqları zaman yuxu müddəti 45.8 saata, 3-cü uşaqda isə 44.5 saata qədər azalır. Uşaq sahibi olmayan qadınların yuxu müddəti isə həftəlik orta hesabla 54 saatdır.




**QOÇ** - Ulduzlar günün ilk yarısını neytal şəkildə başa vurmağı tövsiyə edir. Hər hansı riskə getmək yolverilməzdir. Təxminən saat 14-dən etibarən iş həyatınızda dönüş gözlənilir. Fürsəti fövtə verməyin.

**BUĞA** - Yaxşı olar ki, bu gün bir qədər özünüzə hesabat verəsiniz. Çünki buvaxta qədər keçdiyiniz yanlış və doğrulardan nəticə çıxarmağınız sizə stimul verəcək. İstənilən günahdan çəkinin.

**ƏKİZLƏR** - Həyatınızda, yaxın ətrafınızda lazımsız adamlar az deyil. Özünüzdə güc tapıb onların bəzisindən uzaqlaşın. Çünki bu ayın perspektivləri üçün sizə etibarlı adamlar lazım olacaq. Yuxunuza fikir verin.

**XƏRÇƏNG** - Ümumi mənzərə qənaətbəxş olduğundan sizə yalnız doğru seçim etmək qalır. Əgər bu gün pulla bağlı planlarınız varsa, saat 14-ə qədər həll edin. İşdən başınız açılsa, səfərə çıxa bilərsiniz.

**ŞİR** - Bu il ilk dəfədir ki, bürcünüzdə heç bir mənfi yüklü planet yoxdur. Deməli, taktikanız doğru olarsa, yalnız müsbət olayların iştirakçısı olacaqsınız. Özünüzü güclü hiss edin, xeyirxah olun.

**QIZ** - Bu gün əsl siyasətçi xarizması nümayiş etdirin. Hər bir informasiya və situasiyadan dəqiq nəticə çıxarmaq üçün ölçüb-biçin. Hər ifadənizə diqqət yetirin. Nahardan sonra pul problemlərini çözün.

**TƏRƏZİ** - Bütün astroloji göstəricilər doğma və yaxınlarınızla daha mülayim davranmağı məsləhət görür. Gücünüzə güc qatmaq üçün bu, çox vacibdir. Bunu bacarsanız, taleyinizin qızıl dövrü başlayacaq.

**ƏQRƏB** - Bürcünüzün xarakterindən irəli gələn son sözü əvvəldə demək, qədərindən artıq təvazökarlıq sizə problem yarada bilər. Bu səbəbdən hər kəslə mülayim davranın. Səfər isə uğurlu deyil.

**OXATAN** - Maliyyə bxımından uğurlu gün olsa da, münasibətlər müstəvisində diqqətli olmağınız vacibdir. Köhnə palan içi tökməkdənsə perspektivli layihələr üzərində baş sındırmaq daha yaxşı olar.

**OĞLAQ** - Nahara qədər hər hansı qeyri-ənənəvi addım atmağınız xoşagəlməzliklə nəticələnə bilər. Neytrallığınızı qorumağa çalışın. Sonrakı saatlarda nüfuzlu və ya vəzifəli insanlarla səmərəli görüşləriniz gözlənilir.

**SUTÖKƏN** - İlıq Baharın sizə verdiyi müsbət enerjidən lazımınca yararlanın. Gücünüzü artırmaq üçün fəaliyyətə azacıq fasilə verin. Beyninizdəki arzuları götür-qoy etmək üçün bundan yaxşı gün olmayacaq.

**BALIQLAR** - Kənardan sizə qarşı hər hansı neqativ və ya müsbət təsir olmayacaq. Necə deyərlər, nə əkəcəksinizsə, onu da biçəcəksiniz. İxtiyar sahibi olduğunuz üçün çalışın ki, yalnışlığa yol verməyəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Şotlandlar ucuz viski içmir, çünki...

Şotlandiyada spirtli içkilərə minimal qiymət təyin ediblər. Yeni qaydalara görə, 13 dərəcəli, 0.75 litr ölçüdə olan şərab 4.88 funtdan ucuz satıla bilməz. 0.7 litrlik viski isə 14 funtdan ucuz satılmır.

Lenta.ru saytının xəbərinə görə, Şotlandiyada hər 100 min kişi arasında saxta içkiyə görə 30 ölüm halı baş verib. Müqayisə üçün İrlandiyada 100 min kişi arasında 22, İngiltərə və Uelsdə isə 14 hal qeydə alınıb. Hər həftə Şotlandiyada spirtdən yaranan xəstəliklərə görə 22 nəfər ölür. Bu problem Şotlandiya tibbinə hər il 3 milyard funta başa gəlir.

Şotlandiyada spirtli içkinin minimal qiyməti barədə qanun layihəsi 2012-ci ildə qəbul edilib. Amma Şotland Viski Assosasiyası bu qanuna qarşı çıxıb. Təşkilat bununla bağlı Avropa Məhkəməsinə müraciət edib. Bu məsələni Böyük Britaniyada Ali Məhkəmə həll etməlidir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.